

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

22 SENTYABR 2019-cu il BAZAR № 208 (6535) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

Əlahəzrət,

Əziz Qardaşım,

Səudiyyə Ərəbistanının milli bayramı - Krallıq elan edilməsi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Səudiyyə Ərəbistanının qardaş xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 19 sentyabr 2019-cu il.**

## X.A.Xələfovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Xələf Alı oğlu Xələfov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 sentyabr 2019-cu il.**

## M.Ş.Şəkiliyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Musa Şaban oğlu Şəkiliyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 sentyabr 2019-cu il.**

*Prezident İlham ƏLİYEV:*

# Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətləri uğurla inkişaf edir

## *"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 88-ci kitabı çapdan çıxıb*

**"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 88-ci kitabı çapdan çıxıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 88-ci kitabındakı materiallar 2018-ci ilin iyunundan avqust ayınadək olan dövrü əhatə edir. Həmin dövrdə Azərbaycanın uğurla təmsil olunduğu tədbirlərdən biri Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı olub. Prezident İlham Əliyev Zirvə toplantısında çıxış edərkən Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətlərinin uğurla inkişaf etdiyini bildirib. Dövlətimizin başçısı vurğulayıb ki, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir. Prezidentin Zirvə toplantısında dərin məzmunlu çıxışının mətni 88-ci kitaba daxil edilib.




Kitabda Prezident İlham Əliyevin NATO-nun Zirvə toplantısında iştirak etmək üçün Brüsselə səfəri çərçivəsində keçirdiyi görüşləri barədə informasiyalar, NATO-nun Əfqanıstanda qətiyyətli dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə çıxışının mətni, Fransa və Qazaxıstana səfərlərindən bəhs edən materiallar yer alıb.

Oxucu nəşrdə dövlətimizin başçısının Azərbaycana səfərə gəlmiş Türkiyə, İtaliya, Tacikistan prezidentləri, Almaniyanın Federal Kansleri ilə apardığı danışıqlar, mətbuata bəyanatların mətnləri, ölkələr arasında saziş və müqavilələrin imzalanmasına dair materiallarla da tanış ola bilər. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ olaraq qaldırılır ki, bu da hər cilddə öz əksini tapır.

Çoxcildliyin 88-ci kitabında ölkə rəhbərinin Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikası polis orqanlarının şəxsi heyətinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 20 illik yubileyi münasibətilə Konstitusiya Məhkəməsinin kollektivinə təbrik məktubları və digər məktublar yer alıb.

Bu nəşrdə Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında nitqlərinin mətnləri, Şamaxı, İsmayıllı rayonlarına səfərlərinə dair materiallar da toplanıb.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 88-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

**AZƏRTAC**

# Gürcüstanın nüfuzlu saytı "Əsrin müqaviləsi"nin 25 illiyi ilə bağlı məqalə dərc edib

**Gürcüstanın geniş oxucu kütləsinə malik "geotimes.ge" internet portalı "Əsrin müqaviləsi"nin imzalanmasından 25 il ötür" adlı məqalə dərc edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Gürcüstandakı səfirliyinin təşəbbüsü ilə dərc olunan məqalədə müqavilənin ümummilli lider Heydər Əliyevin gərgin əməyi və uzaqgörən siyasəti nəticəsində imzalandığı xüsusi qeyd olunur. Bildirilir ki, "Əsrin müqaviləsi" Azərbaycan tarixində yeni neft strategiyasının şanlı səhifəsidir. Bu müqavilə həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxildir.




Məqalədə Ümummilli Liderin 2001-ci il 16 avqust tarixli Sərəncamına əsasən, hər il sentyabrın 20-nin Azərbaycanda Neftçilər Günü kimi qeyd olunduğu vurğulanır.

Gürcü dilində nəşr olunan məqalədə sentyabrın 20-də Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 25-ci ildönümünü və Neftçilər Gününün qeyd olunduğu tədbirdə Prezident İlham Əliyevin geniş nitq söylədiyi bildirilir.

Prezident İlham Əliyev çıxışında, həmçinin "Əsrin müqaviləsi"nin Azərbaycan ilə yanaşı, region ölkələrinin, o cümlədən Türkiyə və Gürcüstanın sosial-iqtisadi inkişafında və enerji tranziti ölkəsinə çevrilməsində böyük töhfəsi olduğu xüsusi qeyd edilir.

Məqalənin tam mətni ilə http://geotimes.ge/index.php?m=5&news_id=69423&cat_id=0 linkində tanış olmaq mümkündür.

**AZƏRTAC**

# Sosialyönümlü siyasətin prioritetləri

**Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttə uyğun olaraq 16 ildir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində ölkəmizdə sosial-iqtisadi inkişaf davamlı xarakter almışdır.**

**Bu tendensiya 2019-cu ilin birinci yarısında da davam etmiş, böyük infranstruktur layihələri və sosialyönümlü proqramlar icra olunmuş, Vətənimizin müdafiə qüdrəti daha da möhkəmlənmiş, bütövlükdə Azərbaycanın və hər bir regionun hərtərəfli inkişafına, əhalinin həyat səviyyəsinin təmin edilməsinə istiqamətlənmiş dövlətçilik siyasəti müsbət nəticələrini vermişdir. Məsələn, bu ilin birinci yarısında ümumi daxili məhsul ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz, iqtisadiyyatın qeyri-neft sektoruna yatırılan investisiyalar 5,1 faiz, əhalinin gəlirləri 6,6 faiz artmış, valyuta ehtiyatlarımız 9,7 faiz artaraq 49,1 milyard dollara çatmışdır. Xüsusən, konkret hədəflərə və məqsədlərə hesablanmış iqtisadi islahatlar sayəsində büdcə gəlirləri artmış, maliyyə imkanları genişlənmişdir. Dövlətimiz bu vəsaitləri ilk növbədə sosial sahələrə yönəldir.**

Azərbaycan Prezidenti respublikamızda sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlməsini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Sosial müavinətlərin, pensiyaların, təqaüdlərin, minimum əməkhaqqının artırılması və əhalinin rifahına təsir edən digər qərarların verilməsi məhz bu baxımdan böyük əhəmiyyət kəsb edir. Həyata keçirilən islahatların strateji hədəfləri sırasında qeyri-neft sektorunun, eləcə də regionların davamlı və tarazlı inkişafının təmin edilməsi ilə yanaşı, sosialyönümlü siyasətin prioritetlərinin qorunub saxlanması mühüm vəzifə kimi qarşıda durur. Çünki əhalinin etibarlı sosial müdafiəsinin, eyni zamanda ayrı-ayrı kateqoriyadan olan vətəndaşların yüksək rifah halının təmin edilməsi, imzalanan fərman və sərəncamlar insanların həyat səviyyəsinin daha da yüksəldilməsi istiqamətində mühüm rol oynayıb. Bu sırada sosial qayğıya daha çox ehtiyacı olan aztəminatlı ailələr, o cümlədən şəhid ailələri, Qarabağ müharibəsi veteranları, məcburi köçkünlər xüsusi yer tutmaqla dövlətimizin daim diqqət mərkəzindədir.

İyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi məsələ ilə bağlı keçirilən müşavirədə bütün bunlar barədə hesabatlar dinlənilib və ətraflı məlumat verilib. Ölkəmizin rəhbəri müşavirədə deyib ki, biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik: "Çünki sosial sahə bizim əsas prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik. Onu da bildirməliyəm ki, bu sosial paketin həyata keçirilməsi üçün çox böyük maliyyə vəsaiti tələb olunur. Biz buraya təxminən 2 dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən aylıq müavinət 50 faiz artmışdır, problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapmışdır, digər sosial təşəbbüslər irəli sürülmüşdür və bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir".

Bütün bu deyilənlərə rəğmən, 2019-cu ilin birinci yarısı sosial islahatların davam etdirilməsi baxımından xüsusilə əlamətdardır. Belə ki, son altı ayda vətəndaşların sevincinə səbəb olan addımlar sırasında minimum əməkhaqqının, pensiyaların artırılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər, sosial müavinətlərin, təqaüd sisteminin təkmilləşdirilməsinə dair, həmçinin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinətlərin artırılması haqqında imzalanan sərəncamalar xüsusi yer tutur.

Xatırladaq ki, hələ ötən ilin sonlarında qanunvericiliyə edilmiş dəyişikliklər nəticəsində ölkəmizdə sosial sığorta amnistiyası elan edilmişdir. Bu amnistiyaya əsasən 2006-cı ildən 2018-ci ilədək sosial sığorta sahəsində cüzi ödəniş etmiş şəxslərə 25 il sığorta stajı tətbiq edilmişdir. Bunun nəticəsində bu il yanvar ayının 1-dən etibarən avtomatik pensiya təyinatına başlanmışdır. Avtomatik pensiya təyinatından indiyədək 13 min adam yararlanmışdır. Onlar hər hansı bir ünvana getmədən, hər hansı bir müraciət etmədən pensiya təyinatlarını ən səmərəli və sürətli şəkildə əldə ediblər.

Statistikaya nəzər salsaq bu istiqamətdə həyata keçirilən tədbirlərin aydın mənzərəsini görərik. Qeyd edək ki, dövlət başçısının təşəbbüsü ilə bu müddətdə 2 böyük sosial paket qəbul edilmiş və icrasına başlanmışdır. Birinci sosial islahat paketi 3 milyon insanı əhatə etmiş və ümumi illik maliyyə tələbi 1,6 milyard manat olmuşdur. Həm pensiyaçıların, həm də işləyən vətəndaşların əməkhaqqı artırılmaqla birinci sosial layihə tam icra olunmuşdur.

İkinci sosial paketlə bağlı da hazırlıq işləri yekunlaşmışdır. Belə ki, sentyabr ayının 1-dən etbarən minimum əməkhaqqının 250 manata çatdırılması, dövlət sektorunda çalışan 400 min insanın kateqoriyalarından asılı olaraq 20-50 faiz aralığında əməkhaqlarının artırılması, eyni zamanda oktyabrın 1-dən etibarən 750 min pensiyaçının pensiyasının artırılması ilə bağlı bütün hazırlıq işləri görülmüşdür. Bütövlükdə hər iki paketin ümumi dəyəri cari il üçün 2,3 milyard manatdır. Növbəti il üçün bu rəqəm 3 milyard manat olmaqla 4,2 milyon insanı əhatə edəcəkdir. Minimum əməkhaqqında demək olar ki, mütəxəssislərin hesablamalarına görə iki dəfə artım, minimum pensiyada 72 faizlik artım nəticəsində Azərbaycanda minimum pensiya MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci göstəriciyə yüksəlmək ehtimalı çoxdur.

*(davamı 3-cü səhifədə)*

“Əsrin müqaviləsi” – 25

# “Əsrin müqaviləsi” müstəqil Azərbaycanın tarixində yeni mərhələdir

*(əvvəli 20 və 21 sentyabr tarixli saylarımızda)*

Bakı yaxınlığındakı Səngəçal terminalından başlayan bu layihə çərçivəsində hasil ediləcək təbii qaz Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya ərazisindən və Adriatik dənizinin dibindən keçməklə İtaliyaya qədər 3500 kilometrdən artıq uzanan boru kəmərləri vasitəsilə çatdırılacaq. İlk qazın 2018-ci ilin sonlarında Gürcüstan və Türkiyəyə verilməsi təmin edilmişdir. Avropanın qaz təchizatının isə Azərbaycanda dənizdə ilk qaz hasil edildiyi vaxtdan bir ildən bir qədər çox müddət keçdikdən sonra gerçəkləşəcəyi gözlənilir.

Bu barədə Azərbaycanın dövlət başçısı demişdir:

**“Biz heç kimdən asılı deyilik, öz taleyimiz öz əlimizdədir və müstəqil siyasət aparmaq imkanlarımız, ilk növbədə, iqtisadi imkanlarımızdan qaynaqlanır. Bu imkanları da bizə “Əsrin kontraktı” yaratdı.**

**Bu gün biz beynəlxalq tərəfdaşlarımızla fəal şəkildə yeni layihələr, Xəzər dənizinin Azərbaycan sektorundakı yeni qaz yataqları üzərində işləyirik. Tezliklə, ola bilsin ki, bir neçə ilə, bəlkə də bundan az müddətdə hasilata başlanacaq “Abşeron” yatağı, çox böyük qaz ehtiyatı olan “Ümid” və “Babək” yataqları ilə bağlı Azərbaycan xarici şirkətlərlə fəal danışıqlar aparır. Tezliklə beynəlxalq əməkdaşlığa cəlb olunacağına ümid bəslədiyimiz başqa bir yataq “Qarabağ” adlanır. Həmçinin, böyük qaz potensialı olan iki yataq - “Dan ulduzu” və “Əşrəfi”. Beləliklə, Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları “Şahdəniz” yatağından iki dəfədən artıq çoxdur - 2,6 trilyon kubmetr qaza bərabərdir və əminəm ki, daha çox olacaq. Çünki bizim təcrübəmiz onu göstərir ki, ilkin olaraq gözlənilən ehtiyatlar əvvəlkindən daha çox olur. Məsələn, 1994-cü ildə “Əsrin müqaviləsi” imzalananda “Azəri-Çıraq-Günəşli” yataqlarının ehtiyatları 500 milyon tondan bir qədər çox qiymətləndirilirdi. Təvazökarlıqla desək, hazırda bu rəqəm iki dəfə çox - 1 milyard tona yaxındır. Düşünürəm və ümid edirəm ki, qaz yataqlarında da eyni mənzərinin şahidi olacağıq. Ona görə də Azərbaycan qarşıdakı onilliklərdə dünya bazarlarına enerji ehtiyatlarının etibarlı, uzunmüddətli təchizatçısı olacaq. Bu gün Azərbaycan nefti bəzi Avropa ölkələrinin neft istehlakının üçdə biri və ya daha çox, hətta 40 faizini təşkil edir. Azərbaycan öz qaz ehtiyatları ilə Avropa bazarına daxil olmağa hazırdır...”**

**Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələr - Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya bu layihəni yüksək qiymətləndirir, Azərbaycan dövlətinə öz minnətdarlıqlarını bildirirdilər. Layihədə iştirak barədə Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə anlaşma memorandumları imzalanmışdır. Rumıniya və Türkmənistan da bu böyük dəhlizə maraq göstərdiklərini bəyan etmişlər.** Cənub Qaz Dəhlizi cəlb olunmuş bütün ölkələrdə bir neçə milyardlıq investisiyalara yol açır. Bu, minlərlə yeni iş yeri deməkdir. Bu, təkcə enerji deyil, həm də nəqliyyat infrastrukturu, nəqliyyat infrastrukturuna investisiya yatırılması deməkdir. Cənub Qaz Dəhlizi marşrutu boyunca yerləşən və Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin bir çox hissələrinin qazlaşdırılmasına gətirib çıxaracaq. Bütün bunlar inkişaf, sabitlik, proqnozlaşdırılma imkanı deməkdir və əməkdaşlığa yol açır. Çünki bu gün Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələr Azərbaycanın çox yaxın tərəfdaşlarıdır. Azərbaycan artıq bu ölkələrin böyük əksəriyyəti ilə strateji tərəfdaşlığa dair bəyannamələr imzalamışdır...

## “TANAP” və “TAP”ın istifadəyə verilməsi Türkiyə ilə Azərbaycan arasında əbədi dostluğun növbəti təzahürü - Avropanın enerji təhlükəsizliyinin güclü mənbəyidir

**2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasimin keçirilməsi böyük tarixi hadisə idi. Azərbaycanın iştirakı və dəstəyi ilə reallaşdırılan növbəti nəhəng layihənin həyata keçirilməsi ilə Azərbaycan daha bir tarixi iqtisadi, siyasi uğuruna imza atdı, nəinki regionun, bütövlükdə Avropanın və dünyanın enerji təhlükəsizliyinə özünün növbəti töhfəsini vermiş oldu.**



2018-ci il ərzində o qədər möhtəşəm, genişmiqyaslı layihələr, tədbirlər keçirilib ki, müstəqil inkişaf xəttimiz, müstəqil dövlət siyasətimiz olmadan onlara nail ola bilməzdik.

Eyni zamanda, açılış mərasimində də vurğulandığı kimi, enerji bazarında yaşanan dəyişikliyə və ehtiyaca cavab verən TANAP həm də qarşıdakı illərdə həyata keçiriləcək yeni layihələrin müjdəçisidir. Elə layihə ilə bağlı rəqəmlər bu həqiqəti açıq-aşkar ortaya qoyur.

**Diametri 56 düymlük borulardan ibarət olan 1850 kilometrlik TANAP Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun təbii qaz boru kəməridir. TANAP-ın marşrutu 20 vilayət, 67 rayon və Çanaqqala boğazından keçir. Bu layihənin ilkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetr təbii qazdır. Bunun 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri isə Avropaya nəql olunacaq. Tələbdən asılı olaraq, ötürücülük qabiliyyətinin əvvəlcə 22 milyard, daha sonra əlavə sərmayələrlə 31 milyard kubmetrə çatdırılması hədəflənir. Trans-Anadolu qaz kəməri layihəsinin icrası müstəqilliyimizin daha bir mühüm hadisəsi kimi tarixə düşdü. Azərbaycanın və Türkiyənin möhkəm işbirliyi, qardaşlığa və dostluğa söykənən fəaliyyəti bu strateji layihənin uğurla reallaşmasında əhəmiyyətli rol oynadı. Ölkəmizin iqtisadi qüdrətini, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolunu bir daha təsdiqləyən TANAP dünyanın siyasi və iqtisadi həyatında Azərbaycanın yerini və özəlliyini bir daha nümayiş etdirdi.**

## Azərbaycan dünya miqyaslı layihələrdə iştirak edən mühüm bir tərəfdaş dövlətdir

## STAR: Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının növbəti ifadəsi...

Müstəqilliyimizin 100-cü ilinin uğurlarından bəhs edərkən, Türkiyənin İzmir şəhərində “Star” neft emalı zavodunun açılış mərasimini qeyd etməmək mümkün deyil. Hələ 2011-ci ildə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə təməli atılan “Star” zavodu hər iki ölkənin, bütövlükdə isə bu bölgənin iqtisadi inkişafına və enerji təhlükəsizliyinin təmin olunmasına öz müsbət töhfəsini verəcək tarixi layihədir.

Qeyd edək ki, illik istehsal gücü 10 milyon ton olan “Star” neft emalı zavodu ilk beş il müddətində Azərbaycan iqtisadiyyatına ildə 850 milyon ABŞ dolları, sonrakı dövrlərdə isə hər il 600 milyon ABŞ dollarından çox gəlir gətirəcək. Bu o deməkdir ki, Azərbaycan dünya miqyaslı əhəmiyyətə malik bir zavodun sahibidir və bu da əbədi kapital deməkdir. Bu, eyni zamanda, onu göstərir ki, Azərbaycan-Türkiyə münasibətlərində gündən-günə möhkəmlənən yeni müsbət meyillər yaranır. Bu layihə həm istehsalçı olaraq respublikamız, həm də istehlakçı kimi Türkiyə üçün maraqlıdır.

2018-ci ilin oktyabr ayının 19-da qardaş və dost Türkiyənin İzmir şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə nəinki hər iki ölkənin, bütövlükdə regionun həyatında, inkişafında çox böyük və mühüm rola malik olan “Star” neft emalı zavodunun açılış mərasimi keçirildi. Çox böyük tarixi hadisə idi. Hər iki ölkənin liderləri Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun, müttəfiqliyinin möhkəmləndirilməsi yolunda daha bir uğura imza atdılar. Azərbaycan və Türkiyə birlikdə XXI əsrin enerji tarixini yazır.

“Star” neft emalı zavodunun təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulmuşdur. “Star” zavodunun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək. Müəssisənin əsas xammal tədarükçüsü kimi Azərbaycan Respublikanın Dövlət Neft Şirkəti - SOCAR çıxış edir. SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, “Petkim” neft-kimya kompleksinin ərazisində inşa etdiyi bu zavodda hər il 10 milyon ton xam neft emal ediləcək. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu, 420 min ton qarışıq ksilen və 160 min ton kükürd istehsal olunacaq. Zavod “Petkim” neft-kimya kompleksinin nafta və qarışıq ksilenə olan tələbatını tam ödəyəcək. Onu da qeyd edək ki, SOCAR 19,5 milyard dollarlıq investisiya paketi ilə Türkiyə tarixində ən böyük xarici sərmayəçidir. Bundan əlavə, “Star” Neft Emalı Zavodu Türkiyədə özəl sektorun bir nöqtəyə qoyduğu ən böyük investisiya layihəsidir.

Yeri gəlmişkən qeyd edək ki, Dövlət Neft Şirkəti digər ölkələrə də investisiya yatırır. Son 10 ildə SOCAR-ın Gürcüstandakı nümayəndəliyi tərəfindən SOCAR-ın Tbilisi və Batumidə inzibati ofis binaları, Tbilisidə Azərbaycanın böyük ədibi və mütəfəkkiri Mirzə Fətəli Axundovun ev muzeyi, Marneulidə “Çay Evi” və “Gənclər Mərkəzi”, Tbilisidə Nəriman Nərimanovun ev muzeyi alınıb əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Ümumiyyətlə, 2007-2018-ci illər ərzində SOCAR və ona tabe qurumlar tərəfindən Gürcüstan iqtisadiyyatına 1 milyard ABŞ dollarından artıq sərmayə yatırılmış, Gürcüstan dövlət büdcəsinə təxminən 1,3 milyard ABŞ dolları məbləğində vergi (bütün növ vergi tutmaları üzrə) ödənilmişdir.

SOCAR Azərbaycan ərazisində dənizdə və quruda neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, neftin, qazın və qaz kondensatının hasilatı, emalı və nəqli, neft və neft-kimya məhsullarının, qazın daxili və xarici bazarlarda satışı, ölkə ərazisində sənayenin və əhalinin təbii qaz təchizatı ilə məşğul olur. Beynəlxalq şirkət statusuna malik olan SOCAR təkcə ölkənin daxili tələbatının böyük hissəsini neft-qaz, həmçinin geniş çeşidli neft məhsulları ilə təmin etməklə kifayətlənmir, həmin məhsulların artıq qalan hissəsini xarici bazarlara çıxarmaqla da məşğul olur. Bütün bu vacib və müxtəlif istiqamətli işləri həyata keçirmək üçün şirkət dəniz və quru sahələrində yeni qaz və qaz-kondensat, neft yataqlarının kəşfiyyatı, işlənməsi və son işlənmə mərhələsində olan yataqların abadlaşdırılması üçün yeni texnika və texnologiyaları tətbiq etməyə qadir olan yüksəkixtisaslı mühəndislər, texniki işçilər və fəhlə kadrları yetişdirir.

“Star” neft emalı zavodu Avropa, Yaxın Şərq və Afrika bölgələrində ən böyük müəssisələrdən biridir.

Türkiyənin Xəzinə və Maliyyə naziri Berat Albayrak Türkiyə və Azərbaycan arasındakı dostluğu və birliyi dünya üçün nümunə adlandırdı və dedi: **“Bu gün burada yaranan mənzərə dünyanın içində olduğu bədbinliyə, qeyri-müəyyənliyə ən gözəl həll formasını təqdim edir. Dünya Türkiyə ilə Azərbaycan arasındakı dostluğu, birliyi örnək götürməlidir. Qarşılıqlı uzaqgörənliklə ortaq hədəflərə doğru həmrəyliklə hərəkət etdikdə regional və qlobal sabitliyə, əmin-amanlığa necə böyük töhfə verməyin mümkün olduğu bu mənzərə sayəsində çox aydın görünür. Bu gün bu mənzərə dünyaya ölkələrin öz maraqlarını, iqtisadi sabitliklərini həll etməsinin yolunun himayəçilikdən və onu artırmaqdan, ticarət müharibələri aparmaqdan deyil, həmrəylikdən, rəqabət mühitindən, güclü əməkdaşlıqdan keçdiyini çox aydın şəkildə ortaya qoyur”.**

## Azərbaycan neftinin xaricə daşınması məsələsi diqqət mərkəzində

2000-ci il martın 22-23-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Gürcüstana səfər etdi. Səfər zamanı Gürcüstan ərazisindən daşınan Azərbaycan neftinin tranzit tarifi məsələsi həll olundu. Amma qonşu ölkə ərazisindən keçən neft kəmərinə dəyə biləcək mümkün ziyana dair Gürcüstan tərəfi ilə razılığa gəlmək üçün əlavə danışıqlara ehtiyac vardı və 2000-ci il aprelin 28-də Vaşinqtonda Azərbaycan, Gürcüstan və Türkiyə nümayəndələri arasında bu razılaşma əldə edildi - Gürcüstanla tranzit razılaşma imzalandı.

2000-ci il mayın 26-da sənədlər toplusu Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edildi. 2000-ci il mayın 29-da isə ARDNŞ Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda işləyən yerli və xarici neft şirkətləri üçün bu layihənin təqdimatını keçirdi. Mərasimdə iştirak edən 31 xarici şirkətdən 27-si ARDNŞ ilə razılaşdırılmış şərtlərlə bu layihədə iştirak etmək arzusunu bildirdi.

2000-ci il oktyabrın 17-də Bakıda Prezident sarayında “Azərbaycan Respublikası hökuməti, ARDNŞ və tranzit əraziyə malik ölkə hökuməti arasında razılaşma” və “Bakı-Tbilisi-Ceyhan xam neft boru kəmərinin mühəndislik işləri və layihənin hazırlanması üçün maliyyələşmə və əməkdaşlıq haqqında razılaşma”nın imzalanması mərasimi keçirildi.

2001-ci il yanvarın 23-də Londonda Bakı-Tbilisi-Ceyhan ƏİBK layihəsinin İdarə Komitəsinin iclası keçirildi. Komitə üzvləri baza layihənin yerinə yetirilməsinə dair hesabatlar dinlədilər. Bundan sonra, daha dəqiq desək, 2001-ci il martın 1-də Astanada Qazaxıstanın, ABŞ-ın, Türkiyənin, Azərbaycanın və Gürcüstanın nümayəndələri Aktau-Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə neftin daşınması layihəsi üzrə qarşılıqlı anlaşmaya dair memorandum imzaladılar.

2001-ci il mayın 15-də isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev “Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Azəri-Çıraq-Günəşli yataqlarının işlənib hazırlanmasına dair təcili tədbirlər, eləcə də “Şahdəniz” yatağının işlənməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin və “Şahdəniz” yatağından təbii qazın ixracı üzrə boru kəmərinin tikintisi, istifadəyə verilməsi ilə əlaqəli layihələrin yerinə yetirilməsi haqqında” sərəncam imzaladı.

Ümumiyyətlə, neft müqavilələrinin reallaşması ilə əlaqədar görüləsi işlər o qədər çox və əhatəli idi ki, onların hamısını ətraflı işıqlandırmaq mümkün deyil. Ona görə də burada bu hadisələrin qısa xronologiyasını verməyi məqsədəuyğun hesab edirik.

2001-ci ilin sentyabrında Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti “Azəri”, “Günəşli” və “Çıraq” yataqlarında neft hasilatına dair tammiqyaslı işlərin layihəsinin təqdimatını keçirdi. Aparılan hesablamalar, araşdırmalar sübut edirdi ki, daha güclü neft kəmərinin tikilməsinə artıq ehtiyac yaranmışdır. Belə neft kəməri isə Bakı-Ceyhan neft kəməri ola bilərdi. Konkret faktlarla qeyd etdiyimiz kimi, bu marşrutun tikilməsinə maneçilik törədənlər vardı. Amma Heydər Əliyevin mövqeyi qəti idi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2001-ci il avqustun 16-da “Neftçilər Günü” peşə bayramının təsis edilməsi haqqında” sərəncam imzaladı. Sərəncamda deyilir:

*“Azərbaycanın neft və qaz sənayesinin inkişafında Azərbaycan xalqının dəyərli insanları - böyük alimləri, mühəndisləri, geoloqları, neftçiləri və başqa mütəxəssisləri zəngin neft və qaz sərvətlərinin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüş, fədakarcasına çalışmış və xalqımızın tarixinə şanlı səhifələr yazmışlar. Azərbaycanın tarixində, onun iqtisadiyyatının inkişafında, xüsusilə müstəqilliyinin möhkəmləndirilməsində neft sənayesinin əhəmiyyətini nəzərə alaraq və neftçilərin əməyini yüksək qiymətləndirərək qərara alıram: Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında “Neftçilər Günü” peşə bayramı kimi qeyd olunsun”.*

Bu, həqiqətən, böyük bir məna daşıyan sərəncam idi. Dünya neft sənayesinin inkişafına Azərbaycan neftçiləri böyük töhfələr vermiş, əsl qəhrəmanlıq nümunələri göstərmişlər. Müstəqillik illərində onların fəaliyyət imkanları daha da genişlənmiş neftçilərimiz xarici neft şirkətləri ilə iş birliyində özlərinin peşəkarlığını, məsuliyyətli olduqlarını bir daha sübut etmişlər.

Azərbaycanın neft və qaz sənayesinin inkişafında böyük xidmətləri olan, tanınmış alim və geoloqlardan biri də akademik Xoşbəxt Yusifzadədir. Azərbaycanın bütün dövrlərdə neft sənayesinin inkişafında X.Yusifzadənin əməyi var. Xoşbəxt Yusifzadə bizim neft tariximizdə xüsusi bir səhifə, onun keçdiyi həyat yolu və gördüyü işlər isə ayrıca bir mərhələdir. Prezident Heydər Əliyev 2000-ci il yanvarın 13-də neftçi-geoloq Xoşbəxt Yusifzadənin 70 illik yubileyi münasibətilə təbrikində yazmışdı:

*“Siz ölkəmizdə zəngin neft yataqlarının kəşf edilməsi və işlənməsinə böyük əmək sərf etmiş görkəmli mütəxəssis kimi tanınırsınız. Xəzər dənizində genişmiqyaslı axtarış-kəşfiyyat işlərinin uğurla yerinə yetirilməsində sizin xidmətləriniz xüsusilə böyükdür. “Bahar”, “Azəri”, “Çıraq”, “Kəpəz” və başqa neft və qaz-kondensat yataqlarının kəşfi bilavasitə rəhbərliyiniz və iştirakınızla həyata keçirilmişdir.*

*Respublikanın neft və qaz sənayesinin aktual problemlərinin həllinə yönəldilmiş elmi yaradıcılığınız Azərbaycan dəniz neft və qaz-kondensat yataqlarının işlənmə layihələrinin hazırlanıb həyata keçirilməsində, Xəzər dənizinin dərin sahələrində yerləşən neft-qaz yataqlarının mənimsənilməsi üçün elmi metodların tətbiq edilməsində mühüm rol oynamışdır. Neft laylarının açılmasının təkmilləşdirilməsi, neft, qaz və qaz-kondensat yataqlarının işlənməsi üsulları üzrə ixtiralarınız böyük səmərə gətirmiş, fəaliyyətinizdə elmlə istehsalatın sıx bağlılığını əyani nümayiş etdirmişdir. Karbohidrogen ehtiyatlarının hesablanması ilə bağlı proqnozlarınız həmişə təsdiq olunaraq, öz dəqiqliyi və mötəbərliyi ilə neft alimləri və mütəxəssisləri arasında nüfuzunuzu daha da artırmışdır.*

*Görkəmli neftçi-alim və peşəkar mütəxəssis kimi topladığınız böyük təcrübə Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsində göstərdiyiniz səylər nəticəsində daha da zənginləşmişdir. Müstəqil Azərbaycan Respublikasının yeni neft strategiyasının uğurla həyata keçirilməsində, dünyanın tanınmış neft şirkətləri ilə bağlanmış müqavilələrin gerçəkləşdirilməsində Siz böyük əzmkarlıq göstərirsiniz.*

*Neft sənayesinin inkişafında dövlət mükafatlarına, müxtəlif orden və medallara layiq görülmüş fəaliyyətiniz neftçilərin gənc nəsilləri üçün əsl həyat məktəbidir. Əminəm ki, doğma Azərbaycanımızın tərəqqisi, xalqımızın rifahının yaxşılaşdırılması naminə neft sərvətlərimizin səmərəli işlənməsi və istehsalı uğrunda bundan sonra da var qüvvənizi sərf edəcək və respublikanın neft sənayesi sahələrində yeni nailiyyətlər qazanacaqsınız”.*

* * *

Müstəqillik uğrunda gedən mübarizədə neft amili həmişə ön planda olub. Neft amili bu gün də Azərbaycanın müstəqilliyinə, onun dünyada layiqli yer tutmasına xidmət edir və bu işdə fədakar neftçilərimiz öz ustadlarının başını uca edərək, əsl qəhrəmanlıq nümunələri göstərirlər. İnkaredilməz bir həqiqətdir ki, onların uzun illər ərzində qazandıqları zəngin təcrübə respublikamızın gələcək inkişafı üçün müstəsna əhəmiyyət kəsb edir. Dünyanın böyük neft şirkətləri ilə bağlanmış müqavilələrin reallaşması bunu əyani surətdə sübut edir.

Neftçilər keçmişdə də, indi də ən vacib, hörmətli peşə sahibləridir. Onlara qayğı Azərbaycanın gələcəyinə qayğıdır. Onlara diqqət əməksevər xalqımıza diqqətdir. Qeyd etməliyik ki, bu münasibət uzun müddət olub və indi də vardır. Əlbəttə, keçid dövrünü spesifik şəraitdə yaşayan respublikamızın çətinlikləri neft sənayesinin, burada çalışanların problemlərinin həllinə də təsir edir.

Qəhrəman neftçiləri dalğalı, fırtınalı Xəzərdə işləməyə təkcə maaş deyil, peşəyə vurğunluq, Vətənin qüdrətinin artırılması arzusu cəlb etmişdir. Mən uzun illərdən bəri neftçilərlə, o cümlədən neftçi alimlərlə təmasda oluram. Onların qayğıları, narahatlıqları, iqtisadiyyatla bağlı düşüncələri, sözün əsl mənasında, Vətənini, torpağını sevən insanların düşüncələridir. Onlarla çoxsaylı söhbətlərimdə bir həqiqəti də aşkar etmişəm. Neftçilər çox saf, mərd və dostluğa sadiq insanlardır. Bu keyfiyyətləri həmişə qoruyub saxlayan, gələcəyə nikbin baxan neftçilər ordusu Azərbaycan iqtisadiyyatının möhkəm və əzəmətli sütunlarındandır. Şanlı ənənələri olan Azərbaycan neft sənayesi iqtisadiyyatın aparıcı sahələrindən biridir.

Biz çalışdıq ki, dəniz neftçilərinin keçdiyi şərəfli yola bir daha nəzər salaq, bu işin başlanğıcından indiyə qədər baş vermiş ən vacib hadisələri, ömrünü Azərbaycan neft sənayesinin inkişafına sərf etmiş qəhrəman Azərbaycan övladlarını xatırlayaq. Bu gün onların çoxu aramızda yoxdur. Lakin onlar unudulmur və unudulmayacaqlar. Neftçilər bayramı sözün əsl mənasında milli bayramdır. Bu bayram, təbii ki, qəhrəman neftçilərimizi yeni-yeni uğurlara ruhlandıracaq və onları müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artması işində fəal iştirak etməyə səsləyəcəkdir.

Müstəqilliyin təminatının əsas sütunlarından biri iqtisadi güc və tərəqqidir. Dövlətin iqtisadi potensialı onun müstəqilliyini möhkəmləndirirsə, müstəqillik də öz növbəsində iqtisadi inkişaf və yüksəliş üçün münbit zəmin yaradır.

Azərbaycan neftçiləri hələ uzun illər Azərbaycan iqtisadiyyatının inkişafında, neft strategiyasının uğurla həyata keçirilməsində, eləcə də hər birimizin yaşayışı ilə bağlı olan dövlət büdcəsinin maliyyə təminatında mühüm rol oynayacaqdır.

Sənayenin neft-qaz sektorunda ümumi dəyəri 2018-ci ildə 31,3 milyard manat olmaqla 38,8 milyon ton neft (əvvəlki ilə nisbətən 0,3 faiz çox), 30,6 milyard kubmetr qaz (əvvəlki ilə nisbətən 7,1 faiz çox) hasil edilmişdir.

2018-ci il üzrə dünya bazarlarında Azərbaycan neftinin orta qiyməti 73,1 dollar/ton təşkil etmişdir. 2018-ci ildə SOCAR üzrə əsaslı vəsait qoyuluşu 1,8 milyard manat təşkil etmişdir. İl ərzində şirkətin valyuta və hesablaşma hesablarına 28,7 milyard manat, o cümlədən Azərbaycan Respublikası Dövlət Neft Fonduna aid mənfəət neftinin satışından 17,4 milyard manat, “Şahdəniz” neftinin ixracından əldə edilən vəsait hesabına 187,0 milyon manat, dövlət büdcəsindən nizamnamə kapitalının artırılması üçün 1,2 milyard manat, bank kreditlərinin alınmasından 1,0 milyard manat vəsait daxil olmuşdur.

Hələ ötən əsrin 90-cı illərinin əvvəllərində lokal neft hasilatçısı olan Azərbaycan, onun Dövlət Neft Şirkəti “Əsrin müqaviləsi”nin imzalanmasından ötən 25 il ərzində öz inkişafının növbəti tarixi mərhələsinin astanasına çatmışdır.

Oxucuya təqdim edilən materiallar əyani surətdə sübut edir ki, bu mübarizələrdə Heydər Əliyevin siyasəti qalib gəldi və Azərbaycan bu gün dünyanın dinamik inkişaf edən, beynəlxalq aləmdə öz nüfuzunu artıran, xalqının firavan yaşaması üçün böyük işlər görən bir dövlətdir. Neft Fondunun yaradılması, neftdən gəlirlərin bir hissəsinin ölkənin strateji iqtisadi, sosial məsələlərinin həllinə yönəldilməsi ildən-ilə valyuta ehtiyatlarının daha da güclənməsini, qlobal risklərin təsirlərinin minimuma endirilməsini şərtləndirir.

*“Biz bu gün tarixi bir gün yaşayırıq. Tarixi bir hadisənin şahidiyik. Bu tarixi biz yazırıq. Bugünkü nəsillər, Azərbaycan, Türkiyə, Gürcüstan, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Norveç, Fransa, İtaliya və digər dövlətlər, hamımız bir yerdə böyük bir tarix yazırıq. Bunların hamısı gələcək nəsillər üçündür. Şübhə yoxdur ki, gələcək nəsillər bizim gördüyümüz bu işlərdən bəhrələnərək, daha da firavan yaşayaraq, ölkələrimizdə, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu şəraitində, vətəndaş cəmiyyəti şəraitində yaşayaraq bunların bəhrələrini görəcəklər”.*

**Heydər ƏLİYEV**

*Əgər 1994-cü ildə, çətin dövrdə, həm iqtisadi, həm də siyasi cəhətdən çox ağır dövrdə bütün təzyiqlərə və hədə-qorxulara baxmayaraq, Heydər Əliyevin təşəbbüsü ilə “Əsrin müqaviləsi” imzalanmasaydı, bu gün Azərbaycanda nəinki neft sektorunda, ümumiyyətlə, iqtisadi sahədə inkişafdan söhbət gedə bilməzdi.*

*İlham Əliyev:* “Biz haqlı olaraq neft strategiyamızla fəxr edirik. Çünki Azərbaycanın uğurlu iqtisadi inkişafı, siyasi çəkisinin artması və dünya proseslərində fəal iştirakı ölkəmizin iqtisadi imkanları ilə bilavasitə bağlı məsələdir. İqtisadi imkanları bizə məhz neft strategiyamız yaratmışdır. O da həqiqətdir ki, biz bu imkanlardan bəzi başqa ölkələrdən fərqli olaraq səmərəli şəkildə istifadə etdik - neft kapitalını qeyri-neft sektorunun inkişafına yönəltdik. Beləliklə, infrastruktur layihələrinin icrası və digər iqtisadi islahatlar əslində imkan verdi ki, biz bugünkü reallıqlar haqqında xalqa qürur hissi ilə danışa bilək”.

**Ziyad SƏMƏDZADƏ,**
**Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq Komitəsinin sədri, akademik.**



# İsmayıllıda Yeni Azərbaycan Partiyasının Şirvan bölgəsi üzrə rayon təşkilatlarının ərazi ilk təşkilat sədrlərinin iştirakı ilə müşavirə keçirilib





**Sentyabrın 21-də İsmayıllı şəhərində Yeni Azərbaycan Partiyasının İsmayıllı, Ağsu, Qəbələ, Qobustan, Kürdəmir və Şamaxı ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, müşavirədən əvvəl Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov məktəblilərin əl işlərindən ibarət rəsm sərgisi ilə tanış olub.

Zona müşavirəsində YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, YAP İdarə Heyətinin üzvü, deputat Eldar İbrahimov, Azərbaycan Ağsaqqallar Şurasının sədri, deputat Fəttah Heydərov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, deputat Novruzəli Aslanov iştirak ediblər.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində ölkəmizin uğurla inkişaf etdiyini, vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addımların atıldığını bildirib. O, bu ilin əvvəlindən dövlətimizin başçısı tərəfindən mühüm sosial islahatların həyata keçirildiyini və bunun nəticəsində ölkəmizdə əməkhaqlarının, təqaüdlərin və sosial müavinətlərin əhəmiyyətli dərəcədə artırıldığını diqqətə çatdırıb.

YAP sədrinin müavini-icra katibi Əli Əhmədov partiya həyatı ilə bağlı müşavirə iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlarını verib.

Qeyd edək ki, Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov İsmayıllı şəhərində Heydər Əliyev Mərkəzində Qarabağ müharibəsi veteranları ilə də görüşüb. Əli Əhmədov Qarabağ müharibəsi veteranlarının qayğıları ilə maraqlanıb.

AZƏRTAC

# İsmayıllı şəhərində gənclərlə görüş



**Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov sentyabrın 21-də İsmayıllı şəhərində Heydər Əliyev Mərkəzində gənclərlə görüş keçirib.**

Görüşdə YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Eldar İbrahimov, deputat, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, deputat Novruzəli Aslanov, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov və ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə İsmayıllı şəhərinin mərkəzi meydanında ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə tər gül dəstələri qoyulub.

Heydər Əliyev Mərkəzində keçirilən tədbir dövlət himninin səsləndirilməsi ilə başlayıb.

YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova tədbirdə çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmizin gündən-günə inkişaf etdiyini bildirib. Qeyd olunub ki, dövlət başçısının regionların inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində İsmayıllı rayonunda da geniş tikinti-quruculuq işləri aparılır, infrastruktur layihələri həyata keçirilir, rayon iqtisadiyyatı və aqrar sahə inkişaf etdirilir. İsmayıllı gənclər rayonun inkişafında, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirak edirlər.

Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə əldə edilən uğurlardan danışıb. Əli Əhmədov deyib ki, gənclərin təhsil alması, işləməsi, istirahət etməsi, gənclərimizin qayğısız böyüməsi, layiqli vətəndaş kimi yetişməsi üçün lazım olan bütün imkan və şərait yaradılıb: "Yeni Azərbaycan Partiyası hökumətimizin müəyyənləşdirdiyi bu siyasətin həyata keçirilməsi üçün öz imkanları çərçivəsində bir çox layihələr reallaşdırır. Bütövlükdə hesab edirəm ki, YAP gəncləri partiyamızın gücünün, fəallığının formalaşmasında ictimai-siyasi həyatda partiyamızın yaxından iştirak etməsində əhəmiyyətli bir qüvvəyə, gücə çevriliblər".

Əli Əhmədov qeyd edib ki, YAP-ın cəmiyyətdə rolunun artması fonunda partiyanın gənclərinin də rolunun artması bizi sevindirir: "Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, partiyamızın sıralarında gənclərimizin sayı artır və bu, özlüyündə YAP-ın təkcə bu günü ilə deyil, gələcəyi ilə bağlı da böyük perspektivlərə malik olduğunu ifadə edir. Partiyamızın 700 mindən çox üzvü var və onların təxminən 40 faizi gənclərdən ibarətdir. Getdikcə daha çox sayda Azərbaycanın fəal, vətənpərvər gəncləri öz siyasi talelərini partiyamızla bağlayır, Prezident İlham Əliyevin siyasətinə münasibətlərini bu formada ifadə edirlər".

Bu gün Azərbaycanın öz tarixinin ən gözəl dövründə yaşadığını deyən Əli Əhmədov bildirib ki, ölkəmizdə hər bir vətəndaş özünü təhlükəsiz, əmin-amanlıq içərisində hiss edir. Sabitlik, əmin-amanlıq hər bir ailədə, hər bir valideyndə öz uşaqlarının gələcəyi üçün arxayınçılıq hissi yaradır. Dövlət özünün ən müqəddəs vəzifələrindən olan insanların təhlükəsizliyini qətiyyətlə təmin edir. Vətəndaşların rifahı, xoşbəxt gələcəyi üçün imkan və şərait yaradılır. Məktəblər, uşaq bağçaları, xəstəxanalar inşa olunur. Vaxtilə insanları narahat edən problemlər aradan qaldırılır.

Ölkəmizdə gənclərin inkişafı, təhsili, məşğulluğu, eləcə də idmanın inkişafı üçün hər cür şəraitin yaradıldığını qeyd edən YAP sədrinin müavini Əli Əhmədov deyib: "Gənclərimiz Azərbaycanın bu gözəl dövründə böyüyür, təhsil alır, ölkəmizin tərəqqisində və inkişafında öz xidmətlərini göstərirlər. Gənclər dövlətimizi sevməli, onun yolunda mübariz olmalıdırlar".

Gənclərlə görüşdə Milli Məclisin deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov, eləcə də gənclərin nümayəndələri çıxış edərək, ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, onların dövlətə, dövlətçiliyimizə sədaqətindən, Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətin uğurlarından danışıblar.

AZƏRTAC

# Azərbaycanın Müdafiə naziri Belarus Təhlükəsizlik Şurasının dövlət katibi ilə görüşüb

**Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğu və dövlətlərimizin başçıları arasında dostluq münasibətlərinin ikitərəfli əməkdaşlığın inkişafı üçün möhkəm zəmin yaratdığı qeyd edilib. Azərbaycan ilə Belarus arasında hərbi əməkdaşlığın inkişafına və qarşılıqlı münasibətlərin möhkəmlənməsinə xidmət edən fəaliyyətlərin müzakirəsi zamanı dövlətlərimizin regional təhlükəsizliyə verdiyi töhfələr xüsusi vurğulanıb.

Ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, xüsusilə hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində birgə layihələrin həyata keçirilməsi üçün geniş potensialın olduğunu deyən Müdafiə naziri görüşün önəmini vurğulayaraq, bunun ikitərəfli əlaqələrin inkişafına yeni təkan verəcəyinə əminliyini bildirib.

Münasibətlərin inkişafından məmnunluğunu ifadə edən S.Zas Belarusun Azərbaycan ilə əlaqələrinin genişləndirilməsi, o cümlədən hərbi sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində perspektivlərin olduğunu qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətraflı müzakirə olunub.

AZƏRTAC

# Müdafiə naziri cəbhəboyu zonada tikintisi davam edən hərbi hissələrdə olub



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığının icrası ilə əlaqədar Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada tikintisi davam edən bir neçə hərbi obyektdə olublar.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tikinti işlərinin gedişini yoxlayan general-polkovnik Zakir Həsənov inşaat işlərinin keyfiyyəti aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

AZƏRTAC

# Çin nümayəndə heyəti Heydər Əliyev Mərkəzi ilə tanış olub

**Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Cançunun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 21-də Heydər Əliyev Mərkəzində olub.**



AZƏRTAC xəbər verir ki, qonaqlara dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verilib.

Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının, Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Bundan əlavə, Mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərin beynəlxalq aləmdə populyarlaşdırılmasına və təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edir.

Bildirilib ki, məşhur memar Zaha Hadidin layihəsi əsasında inşa edilmiş Mərkəz dünya memarlıq inciləri siyahısına daxil edilib.

Qonaqlar əvvəlcə Heydər Əliyev Muzeyi ilə tanış olublar. Nümayəndə heyətinin diqqətinə çatdırılıb ki, muzeyin "Fotoşəkillərdə əks olunmuş həyat", "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs, nailiyyətlər" adlı bölmələrində Ulu Öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur. Hər bir mövzu üzrə materiallar Azərbaycan və ingilis dillərində təqdim edilir. Muzey qonaqların böyük marağına səbəb olub.

Çin nümayəndə heyətinin üzvləri Mərkəzdə "Azərbaycan inciləri" sərgisi ilə də tanış olublar. Bildirilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı unikal eksponatlar nümayiş etdirilir. Sərgidə qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri təqdim edilib. Mis məmulatlar sərgisi qonaqların xüsusi marağına səbəb olub.

Diqqətə çatdırılıb ki, Azərbaycanın qədim çalğı alətləri orijinal şəkildə - səsli formada təqdim olunur. Azərbaycan milli geyimləri, qədim sikkələr nümayiş etdirilən sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Nümayəndə heyəti klassik avtomobil sərgisi ilə də tanış olub.

Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Cançu Mərkəzin xatirə kitabına ürək sözlərini yazıb.

AZƏRTAC

# Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Xalça Muzeyi ilə tanış olub

**Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Cançunun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 21-də Azərbaycan Xalça Muzeyində olub.**



AZƏRTAC xəbər verir ki, muzeylə tanışlıq zamanı Mədəniyyət naziri Əbülfəs Qarayev və muzeyin direktoru Şirin Məlikova qonaqlara ölkəmizdə qədim xalçaçılıq ənənələri haqqında ətraflı məlumat veriblər.

Bildirilib ki, Azərbaycan xalçaçılıq sənətinin əsas bədii istiqamətlərini əks etdirən muzeyin kolleksiyası nadir gözəlliyin, istifadə olunan materialların, toxuma texnikasının, xalçalara məxsus zərif və dərin bədii xüsusiyyətlərin harmoniyasını nümayiş etdirir.

Diqqətə çatdırılıb ki, "qızıl fondu"nu xovlu xalçalar təşkil edən muzeyin kolleksiyasında xovsuz xalçaların da nadir nümunələri saxlanılır. Burada Azərbaycanın 7 əsas xalçaçılıq məktəbinin - Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz məktəblərinin xalça nümunələri təqdim olunur. Xalçalar xalqın həyat və məişətini əks etdirən, insan, heyvan, quş, bitki ornamentləri ilə zəngin olan sənət əsərləridir.

Qeyd edilib ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində milli xalçaçılıq sənəti 2010-cu il noyabrın 16-da UNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib və həmin gün ölkəmizdə Azərbaycan Xalçası Günü kimi qeyd olunur.

Muzeylə tanışlıqdan sonra Li Cançu muzeyin xatirə kitabına öz təəssüratlarını qeyd edib.

Bildirib ki, nümayiş olunan xalça kolleksiyası heç bir yerlə müqayisə oluna bilməz. Bu sənət Azərbaycan xalqının mədəni irsini əks etdirməklə yanaşı bütün dünyaya öz töhfəsini verir.

Qonaq Çinin Sinzyan, Daxili Monqolustan əyalətlərində də xalçaçılıq sənəti ilə məşğul olan məktəblərin fəaliyyət göstərdiyini söyləyib. Əlbəttə, çinlilərin toxuduğu xalçalar öz texnologiyası ilə seçilir və Azərbaycan xalçalarından fərqlənir.

"Təəssüf hissi ilə qeyd etmək istərdim ki, cavanlar artıq bu sənətdən uzaqlaşır və xalça toxuyanların sayı get-gedə azalır. Bu isə Çin xalçaçılıq ənənələrinin unudulmasına gətirib çıxara bilər", - deyə L.Cançu əlavə edib.

Mədəniyyət naziri Əbülfəs Qarayev hər iki dövlətin xalçaçılıq ənənələrini, toxuma texnologiyası sirlərini bölüşmək təklifini irəli sürüb. L.Cançu öz növbəsində bunun dünya mədəni irsinin qorunmasına müsbət təsir edəcəyini vurğulayıb.

Qonağa Azərbaycan Milli Xalça Muzeyinin 50 illik fəaliyyətinə həsr olunmuş kitab və xalça hədiyyə edilib.

AZƏRTAC

# Sosialyönümlü siyasətin prioritetləri

*(əvvəli 1-ci səhifədə)*

Minimum əməkhaqqı isə yenə də alıcılıq qabiliyyəti üzrə MDB məkanında ikinci göstərici olacaqdır. Müavinət və təqaüdlərin artırılması sahəsində görülən işlər ümumilikdə 1,3 milyon insanı əhatə etmişdir. Bunlardan 300 mindən artığı əlilliyi olan şəxslər, 500 minə qədəri məcburi köçkün, 100 mindən artığı tələbə və gənclərdir. Bu göstəricilərə nəzər saldıqda görürük ki, müavinət və təqaüdlər əhalinin sosial cəhətdən ən həssas təbəqəsini əhatə edir və onların gəlirləri çox əhəmiyyətli dərəcədə artmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev ölkə əhalisinin sosial rifahının yüksəldilməsi məsələlərinə böyük həssaslıqla yanaşır, o cümlədən şəhid ailələrinə daim qayğı göstərir. Məsələn, 2003-cü ildən bəri 7 minə qədər şəhid ailəsi mənzillə təmin olunub. Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət, pensiya ilə yanaşı Prezident təqaüdü verilir. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında" 2019-cu il 30 yanvar tarixli fərmanına əsasən, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi və onlara dövlət qayğısının artırılması məqsədilə şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləğinin 58 manat artırılaraq 2019-cu il fevralın 1-dən 300 manat müəyyən edilməsi deyilənləri bir daha təsdiq edir.

Dövlət başçısının müəyyənləşdirdiyi strateji kursa uyğun olaraq qaçqın və məcburi köçkünlərin də sosial rifahı davamlı olaraq gücləndirilir, onların mənzil-məişət şəraiti yaxşılaşdırılır. Son illər bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələrin salınması, çoxmərtəbəli binaların inşa olunması məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına xidmət edir. Qeyd edək ki, təkcə 2018-ci ildə 5800 məcburi köçkünə mənzillər və fərdi evlər verilib. Bu kateqoriyadan olan insanlara verilən aylıq müavinət də ilbəil artırılmışdır. Əgər 2017-ci ildə məcburi köçkünlərə ayrılan vəsait 2017-ci ilin əvvəlində 36 manat, 2018-ci ildə 40 manat idisə, nəhayət 2019-cu ildə 60 manat olmuşdur. Bununla da, məcburi köçkün ailələrinin hər bir üzvünə kommunal xərclərin ödənilməsi üçün dövlət tərəfindən 60 manat vəsait ödənilir.

Son illər sosial sahədə həyata keçirilən islahatlar, bu yöndə görülən tədbirlər, dövlət başçısının bununla bağlı imzaladığı fərman və sərəncamlar yekunda onu deməyə əsas verir ki, ölkəmizdə aparılan sosial siyasət davamlı xarakter almışdır və növbəti illərdə daha da genişlənəcəkdir. Ona görə də bu ilin əvvəlində əhalinin bütün təbəqələrini əhatə edən 2 sosial islahat paketinin uğurla icra olunması və həyata keçirilən digər tədbirlər cəmiyyət tərəfindən yüksək dəyərləndirilir. Ölkə rəhbərinin dediyi kimi Azərbaycan vətəndaşının rifahı, onların yaşayış səviyyəsinin yüksəldilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

# “UNEC ikili diplom proqramları” sərgisi keçirildi

**Azərbaycan Dövlət İqtisad Universitetində “UNEC ikili diplom proqramları” sərgisi keçirilib.**

Sərgidə UNEC rektoru, professor Ədalət Muradov, millət vəkili Fazil Mustafa, “APA Group”un rəhbəri Vüsalə Mahirqızı, UNEC İctimai Nəzarət Şurasının koordinatoru Etibar Əliyev, mətbuat nümayəndələri, tələbə, magistr və valideynlər iştirak ediblər.



Sərgidə UNEC-in Avropa və Amerikanın aparıcı universitetləri ilə bakalavr və magistratura pilləsi üzrə ikili diplom proqramları təqdim olunub. Sərgini ziyarət edənlərə UNEC-də bakalavr pilləsi üzrə London Unversiteti/London İqtisadiyyat Məktəbi, Fransanın Montpellier Universiteti, Fransanın İCD Beynəlxalq Biznes Məktəbi (İnstitut international du commerce et du dveloppement) və Moskva Dövlət Humanitar İqtisad Universiteti ilə ikili diplom proqramları barədə ətraflı məlumat verilib. UNEC-in Montpellier universiteti ilə ikili diplom proqramının məzun tələbələri ziyarətçilərə və qonaqlara proqramın üstünlüklərindən bəhs ediblər.

Sərgidə UNEC-in magistr pilləsi üzrə ABŞ-ın Linkoln Universiteti, Fransanın Montpellier Universiteti, Litvanın Mikolas Romeris Universiteti (MRU), İsveçrənin UBİS (University of Business and İnternational Studies) Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (BBTU) ikili diplom proqramları da nümayiş olunub.

UNEC rektoru, professor Ədalət Muradov qonaqlara və jurnalistlərə sərgi barədə açıqlama verib. Bildirib ki, UNEC-in ikili diplomları barədə sərgi ilk dəfədir ki, təşkil olunur. Burada UNEC-in 8 xarici universitetlə magistr və bakalavr pilləsi üzrə ikili diplom proqramı təqdim olunur. Sərginin məqsədi tələbə və magistrlərə ikili diplomlar barədə ətraflı məlumat vermək, onların maraq və istəklərinə uyğun seçim etmələrinə dəstək göstərməkdir. Rektor bildirib ki, 4 illik təhsil müddətində tələbələr UNEC-in diplomu ilə yanaşı, ikili diplom proqramına qoşularaq nüfuzlu xarici universitetin də diplomunu əldə edə bilərlər. Eləcə də magistratura təhsilində UNEC ilə ABŞ-ın və ya Avropanın aparıcı universitetlərindən birinin diplomunu qazanaq mümkündür.

Sərgini ziyarət edən qonaqlar UNEC-in ikili diplom proqramlarını yüksək qiymətləndirərək, bu imkanı tələbə və magistrlər üçün böyük uğur adlandırıblar.

Sərgidə tələbələri maraqlandıran suallar cavablandırılıb, ikili diplomlar barədə bukletlər paylanılıb. ■



# Ümumtəhsil məktəbləri üçün musiqi dərsliyi

**Orta ümumtəhsil məktəblərində gənc nəslin bədii-estetik dünyagörüşünün formalaşması və inkişaf etdirilməsi musiqi pedaqogikası qarşısında duran əsas vəzifələrdəndir. Təqdirəlayiq haldır ki, müasir Azərbaycan dövləti təhsilə böyük əhəmiyyət verərək, bu sahənin daim yeniləşməsi və yüksək səviyyədə inkişaf etməsi üçün müxtəlif səpkili tədbirlər və layihələr həyata keçirir. Bu baxımdan “Musiqi” dərsliyi və dərs vəsaitlərinin nəşr olunması təhsil sahəsində yeniliklərin daha bir nümunəsi kimi xüsusilə diqqətəlayiqdir.**

Yeni tədris ilinin başlanması ilə əlaqədar bir sıra dərsliklər yenidən işlənərək redaktə olunmuş və təkrar nəşrə təqdim edilmişdir. Bu baxımdan ümumtəhsil məktəblərinin IV və VIII sinfləri üçün nəşr olunan “Musiqi” və “Musiqi müəllimi üçün vəsait” kitabları şagirdlərin estetik dünyagörüşünün formalaşması sahəsində aparılan məqsədyönlü və planlı təhsil strategiyasının növbəti mərhələsi kimi təqdirəlayiqdir. Kurikulum sisteminin tətbiqi ilə başlanan bu strategiya növbəti dəfə nəşr olunan dərslik komplektlərində uğurla davam etdirilmişdir. Ardıcıl olaraq, mütəmadi şəkildə orta ümumtəhsil məktəblərinin I-VII sinifləri üçün nəzərdə tutulan “Musiqi” dərslikləri və metodik vəsait mərhələli şəkildə, sadədən mürəkkəbə prinsipi üzrə şagirdlərin musiqi haqda biliklərə yiyələnməsi üçün mühüm bir vasitədir.

2019-cu ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin müvafiq sərəncamına əsasən Azərbaycan və rus dillərində yenidən işlənərək nəşr olunan IV və VIII siniflər üçün dərs komplektləri təhsil prosesinin müasir mərhələsində qarşıya qoyulmuş tələblərə cavab verəcək səviyyədə hazırlanmışdır. Təqdim olunan dərslik və metodik vəsaitlər şagirdlərin musiqi haqda biliklərininin mənimsənilməsinə bilavasitə xidmət edərək onların musiqi-estetik zövqünün formalaşmasına şərait yaradır.

IV sinifdə təhsil alan şagirdlər üçün buraxılmış O.Rəcəbov, N.Kazımov, O.İmanova- “Musiqi” dərsliyi və O.Rəcəbov, N.Kazımov, Y.Axundova- “Musiqi- müəllimi üçün vəsait” kiçik yaşlı şagirdlərin ilkin musiqi zövqünün və musiqi haqda anlayışlarının formalaşmasında mühüm bir addımdır.

“Musiqi 4” dərsliyi 4 bölmə və 34 mövzudan ibarətdir. Dərslikdə ardıcıl olaraq Azərbaycan xalq musiqisi ilə yanaşı Azərbaycan və dünya xalqlarının musiqisi, bəstəkar yaradıcılığında digər xalqların musiqisindən istifadə olunma, bəstəkar, ifaçı və dinləyici adlı tematik bölmələr yer alır. Mövzu seçimində dərslik müəlliflərinin şagirdlərin yaş dövrünün xüsusiyyətlərini nəzərə alaraq mövzuların uyğunlaşdırması xüsusilə diqqətəlayiqdir.

Azərbaycan xalq musiqisinin müxtəlif janrları ilə ilkin tanışlıq mərhələsində xalq mahnıları, xalq rəqsləri, aşıq musiqisi, muğamlar və zərbi-muğamlar kimi mövzular haqqında ətraflı məlumat verilir. Dərsliyə, həmçinin bəstəkar yaradıcılığında digər xalqların musiqisindən istifadə olunması da bölmələr üzrə verilmişdir. Əvvəlcə, Azərbaycan bəstəkarlarının, sonra da rus və xarici bəstəkarların yaradıcılığında başqa xalqların musiqisindən yaradıcı şəkildə istifadə edərək yazılan əsərlərlə bağlı mövzular daxil edilmişdir. Dərsliyin son bölməsində isə müxtəlif musiqi janrları (mahnı, romans, opera, operetta, simfoniya, balet və s.) haqqında anlayışlar verilir.

“Musiqi 4” dərsliyi şagirdlərin Azərbaycan xalq musiqisi ilə bağlı təsəvvürlərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edərək milli-mənəvi dəyərlərimiz haqqında onların dünyagörüşünün təkmilləşməsinə bilavasitə təkan verir.

VIII sinifdə təhsil alan şagirdlər üçün nəzərdə tutulan “Musiqi” dərsliyi (O.Rəcəbov, N.Kazımov, A.Babayeva) və “Musiqi müəllimi üçün vəsait” (O.Rəcəbov, N.Kazımov, F.Hidayətova) yeniyetmə şagirdlərin şəxsiyyət kimi formalaşmasında növbəti mərhələ kimi onların estetik dünyagörüşünün zənginləşməsində mühüm rol oynayır.




“Musiqi 8” dərsliyi 4 bölmə üzrə qruplaşaraq 34 mövzudan ibarətdir. Dərslikdə ardıcıl olaraq bəstəkar yaradıcılığında xalq musiqisi, muğamdan operayadək, xalq musiqisi və professional musiqiçilər adlı tematik bölmələr verilir. Mövzu seçiminə yaradıcı yanaşan müəlliflər Azərbaycan və rus bəstəkarlarının yaradıcılığında xalq musiqisinin əhəmiyyəti məqamını xüsusilə vurğulamışlar.

Konkret bəstəkarlara həsr edilən mövzularla yanaşı, dərsliyə, musiqinin olduqca önəmli olan janrları- xalq musiqisi və muğam sənəti ilə bağlı mövzular daxil edilmişdir. Milli musiqi sərvətimiz olan muğamın əsas müddəalarının izah edilməsi şagirdlərdə bu janra olan marağın daha da artmasını təmin edir. Dərsliyin maraqlı mövzuları arasında “Amerika cazı və Azərbaycan muğamı” şagirdlərin dünyagörüşünün və musiqi haqda təsəvvürlərinin genişləndirilməsinə təkan verərək onlarda fərqli mədəniyyətlər, yaradıcı yanaşmalar haqda təsəvvür yaradır.

Bəstəkar yaradıcılığında mövzu seçiminin önəmli faktorlardan biri olması qeyd olunaraq bu dərsliyə milli-vətənpərvərliklə bağlı mövzular içərisində “20 Yanvar 1990-cı il və muğamlar” adlı bölmənin daxil edilməsi milli şüurun formalaşmasında olduqca gərəkli məqamlardan biri kimi vurğulanır.

“Musiqi 8” dərsliyində “Xalq musiqisi və professional musiqiçilər” diqqətçəkən bölmələrdən biri olub, musiqi ifaçılığı sahəsində ən layiqli, istedadlı şəxsiyyətlərin timsalında maraqlı məlumatlar verilir .

Hər iki dərsliyin ümumi quruluşu özünəməxsusluğu ilə fərqlənir. Burada bilavasitə tədris olunan mövzuların mətni ilə yanaşı, illustrativ materiallar - haqqında bəhs edilən bəstəkar və ya ifaçının portret şəkilləri, hər bir mövzu ilə bağlı olan mahnının təksəsli not nümunəsi, hər mövzuya uyğun və dinləmək üçün seçilən musiqi əsərləri verilir ki, bu da keçilən dərsin daha dərindən mənimsənilməsinə xidmət edir. Həmçinin, mövzu ilə əlaqəli müxtəlif diaqram və sxemlərdən də istifadə olunur.

Dərsliklərdə diqqəti cəlb edən, önəmli məqamlardan biri təqdim olunan mövzuların səlis, anlaşıqlı, şagirdlər tərəfindən asan qavranılan dillə izah edilməsidir.

Qeyd etmək lazımdır ki, “Musiqi 4” dərsliyində şagirdlərin yaş səviyyəsini və musiqi haqda ilkin biliklərinin formalaşmasını nəzərə alaraq, musiqi lüğətinin verilməsi, musiqi janrları haqda lakonik məlumatların olması, mətnlərin yığcamlığı, mövzu ilə əlaqədar müxtəlif illüstrasiyaların verilməsi, “Musiqi 8” dərsliyində isə hər bölmənin sonunda mövzu ilə bağlı test nümunələrinin olması önəmli tərəflərdən biri kimi dəyərləndirilir.

“Musiqi” dərslikləri ilə birlikdə təqdim olunan “Müəllim üçün vəsait” də öz yüksək məziyyətləri ilə seçilir. Metodik vəsaitin əvvəlində Giriş, “Musiqi” fənni üzrə standartlar, məzmun xətləri üzrə əsas və alt standartlar, habelə resurslar, “Musiqi” dərsinin planlaşdırılmasına dair alternativ nümunələr və nəhayət, fənn üzrə illik planlaşdırma kimi paraqraflar verilmişdir ki, bu da tədris prosesində müəllimin fənn üzrə apardığı bütün işləri mərhələli şəkildə həyata keçirmək üçün son dərəcə vacibdir.

Metodik vəsaitdə hər mövzu ilə bağlı tədrisin məqsədi, mövzunun əsas məzmunu, differensial təlimin bəndləri, mövzunun yaradıcı tətbiqi, müvafiq tapşırıq, sual və testlər verilir. Dərsliklərdə olduğu kimi, metodik vəsaitlərin də sonunda musiqi repertuarı təqdim edilir. Əgər dərslikdə repertuar əsasən xalq və bəstəkar mahnılarından ibarətdirsə, metodik vəsaitdəki repertuara daha çox operalar, simfoniyalar, simfonik muğamlar, caz üslubunda əsərlərdən fraqmentlər daxil edilmişdir. Bu isə şagirdlərin tanış olacaqları musiqi janrının müxtəlifliyini və rəngarəngliyini təmin edir.

Əlbəttə, dərsliklərdə qeyd olunan musiqi əsərlərinin disk üzərində yazılmış audioversiyalarının əlavə olunması pedaqoqların işinin daha əyani həyata keçirilməsinə imkan yaradardı. Bu mənada disk variantlarının hazırlanması istiqamətində aparılan məqsədyönlü işlər üzərində fəaliyyətin tezliklə yekunlaşdırılmasını arzu edirik.

Dərslik və metodik vəsaitdə qeyd olunan internet ünvanları nəşrlə bağlı olan irad və təkliflər üçün nəzərdə tutulmuşdur.

Dərslik müəllifləri məktəblilərin musiqi təhsili ilə bağlı olan bütün müasir tələblərə uyğun şəkildə məqsədyönlü fəaliyyət göstərmişlər. Dərslik və metodik vəsaitin kifayət qədər ətraflı və məzmunlu olması O.Rəcəbov, N.Kazımov, Y.Axundova, A.Babayeva, O.İmanova, F.Hidayətova kimi müəlliflərin musiqi pedaqogikası sahəsində böyük təcrübəyə malik mütəxəssis olmalarından irəli gəlir. Qeyd etmək lazımdır ki, dərslik və metodik vəsaitin ərsəyə gəlməsində mühüm rolu olan pedaqoji elmlər doktoru, professor, Rusiya Pedaqoji və Sosioloji Elmlər Akademiyasının akademiki, bəstəkar Oqtay Rəcəbov həmmüəlliflərlə birlikdə milli ənənələrə əsaslanan ümumbəşəri dəyərləri məktəblilərə aşılamağa çalışmışdır. Eyni zamanda, “Musiqi 4” dərsliyi şagirdlərin yaş səviyyəsini nəzərə alaraq, Psixologiya Elmi-Tədqaqat İnstitutunun mütəxəssisi, psixologiya üzrə fəlsəfə doktoru Müşviq Mustafayev tərəfindən müvafiq parametrlər üzrə dəyərləndirilmişdir.

Müasir dövrün tələblərinə uyğunlaşdırılaraq yenilənmiş şəkildə təqdim olunan dərslik və metodik vəsait ölkəmizdə orta ümumtəhsil məktəblərində təhsil prosesinin planlı şəkildə aparıldığını, məktəblilərin estetik tərbiyəsinin düzgün şəkildə formalaşdırılmasının bariz nümunəsidir. Bu mənada ümumtəhsil məktəblərinin IV və VIII sinfləri, Azərbaycan və rus bölmələri üçün nəzərdə tutulan “Musiqi” dərsliyi və metodik vəsaitin musiqi pedaqogikası sahəsində əhəmiyyətini dəyərləndirərək əminliklə demək olar ki, bu dərslik şagirdlərin gələcəkdə hərtərəfli şəxsiyyət kimi formalaşmasında öz təsirini göstərəcəkdir.

**Xatirə HƏSƏNZADƏ,**
**Ü.Hacıbəyli adına BMA-nın dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru.**

# Nəsillərə örnək bir ömür

**İnsan dünyaya göz açanda onun əməl dəftəri təmiz ağ kağıza bənzəyir. Yaşa dolduqca hər kəsin həyatdakı uğurları, əldə etdiyi nailiyyətləri öz əməl dəftərinə qeyd olunur. Xeyirxahlıq, nəcib əməllər bu dünyada insanı ucaldan, digərlərindən fərqləndirən ən ülvi duyğulardır. İnsan var Tanrının verdiyi ömür payını elə yaşayır ki, ömrünün sonunadək yaddaşlarda qalacaq bir xoş xatirəsi qalmır. İnsan da var hələ gəncliyindən çalışdığı kollektivdə, yaşadığı şəhərdə çoxlarına kömək olur, darda qalana yol göstərir, bütün mənalı ömrünü xalqının firavan həyatına, cəmiyyətin tərəqqisinə sərf edir. Belə insanlardan biri də Fikrət Cümşüd oğlu Teymurovdur.**

Fikrət Teymurov 23 sentyabr 1944-cü ildə Bakı şəhərində anadan olub. 1951-ci ildə Bakı şəhərindəki 1 saylı orta məktəbə daxil olub və 1961-ci ildə həmin məktəbi bitirib. 1963-1965-ci illərdə hərbi xidməti başa vurduqdan sonra o, 1973-cü ildə Odessa Dəniz Donanması Mühəndislər İnstitutunun Bakı filialının iqtisadiyyat fakültəsinə qəbul olub və 1979-cu ildə həmin ali məktəbin mühəndis-iqtisadçı ixtisası üzrə bitirib.

Fikrət Teymurov 1974-1977-ci illərdə “Paris Kommunası” adına Gəmi təmiri zavodunda təsərrüfat müdiri vəzifəsində çalışıb. Onun sonuncu olaraq tutduğu vəzifələr 1977-2005-ci illərdə Bakı Limanının Dəniz Vağzalının rəis müavini, daha sonra 2005-2015-ci illərdə Dəniz Vağzalının rəisi olub.

Fikrət müəllim hələ uşaqlıq illərindən Xəzərin mavi sularının vurğunu idi. Sahildə dayanıb ləpələri seyr etməkdən, dənizdə üzən gəmilərə baxmaqdan xüsusi zövq alırdı. Elə dənizə, sahili döyəcləyən ləpələrə olan maraq və istək onun ömrünün 38 ilini Bakı dəniz vağzalı ilə bağladı.

F.Teymurovun Bakının keçmişi ilə bağlı acılı-şirinli xatirələri var. 1988-ci ilin meydan hadisələri, 1990-cı ilin 20 Yanvar qırğını Fikrət Teymurovun yaddaşında silinməz iz qoyub. Çalışdığı Dəniz Vağzalı Azadlıq meydanının yaxınlığında yerləşirdi. Azadlıq, müstəqillik duyğuları ilə döyünən qəlbi həmişə xalqın yanında olub.

Onun təvazökarlığı, elədiyinin mində birini dilinə gətirməməsi, doğrudan da, gözəl insanlıq xüsusiyyətlərinə malik olmasından irəli gəlir. Deyir ki, xalqım, Vətənim üçün indiyədək etdiklərim həmişə məndə qürur hissi doğurub. Fəxr edirəm ki, müstəqil Azərbaycanın qurucuları sırasında mənim də azacıq da olsa, əməyim var.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə ali hakimiyyətə qayıdışını Fikrət müəllim Azərbaycan xalqının tarixi seçimi kimi qiymətləndirir. 1993-cü ildə Azərbaycanda vətəndaş qarşıdurması, xaos hökm sürdüyü bir vaxtda ümummilli lider xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə gəldi və həyata keçirdiyi iqtisadi, siyasi islahatlar nəticəsində inkişaf və tərəqqinin əsasını qoydu. Heydər Əliyevin təməlini qoyduğu müstəqil Azərbaycan artıq 29-cu ildir günü-gündən güclənir, inkişaf edir.

Bu yolu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin iqtisadi cəhətdən daha qüdrətli dövlətə çevrilməsi üçün böyük islahatlara təkan verib. Son dövrlər əməkhaqlarının, pensiya və müavinətlərin artırılması ilə bağlı verilən sərəncamlar xalqın rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlar dövlət başçısının əhalinin sosial vəziyyətinin daim diqqət mərkəzində saxlamasının bariz nümunəsidir.

Fikrət Teymurovun əməyi həmişə dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2011-ci ildə Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə “Tərəqqi” medalı ilə təltif olunub, 2017-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb. O, 2014-cü ildə Dəniz Donanmasının Fəxri işçisi, 2018-ci ildə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları təşkilatının “30 il” yubiley medalı, Fəxri fərmanları ilə təltif olunub.



F.Teymurov hər gün Bakı Dənizkənarı Milli Parka gəzməyə çıxanda qeyri-ixtiyari olaraq ayaqları onu Dəniz Vağzalına gətirir. Bir vaxtlar birlikdə çalışdığı insanlar onu görən kimi xoş üzlə, mehribanlıqla qarşılayırlar. İndi də doğma kollektivində hər kəs işləri çətinə düşəndə tez Fikrət müəllimi arayıb ondan məsləhət alır. O da həvəslə bilik və bacarığını gənclərlə bölüşür, onları doğru yola istiqamətləndirir.

***Ömrünün kamillik dövrünü yaşayan təcrübəli mütəxəssis Fikrət Teymurovun 75 yaşı tamam olur. Bakı Limanının kollektivi öz dəst-xətti və qabaqcıl iş təcrübəsi ilə uzun müddət çalışdığı sahəyə töhfələr verən Fikrət müəllimi yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona cansağlığı və həyatda müvəffəqiyyətlər arzu edir.***

**Bəybala BƏYBALAYEV,**
**“Respublika”.**

# BMU-da Azərbaycan Beynəlxalq Bankının nümayəndələri ilə görüş

**Bakı Mühəndislik Universitetinin Müəssisələrlə əlaqələr və karyera departamentinin təşkilatçılığı ilə Beynəlxalq Bankın IBA Tech Akademiyasının nümayəndələrinin tələbələrlə görüşü keçirilib.**





Görüşdə BMU-nun Elmi işlər üzrə prorektoru Elçin Süleymanov universitetin fəaliyyət istiqamətləri barədə qonaqlara ətraflı məlumat verib. Bildirib ki, universitetdə əksəriyyəti ingilis dilində olmaqla mühəndislik, iqtisadiyyat və pedaqoji ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir. Tələbələrin ixtisaslarına ingilis dilində yiyələndikləri üçün beynəlxalq təhsil proqramlarında, olimpiadalarda və layihələrdə həmişə uğur qazandıqlarını da nəzərə çatdırıb.

Beynəlxalq Bankın idarə heyətinin sədrinin müşaviri Zaur Ələkbərov çıxış edərək görüşün təşkili üçün universitet rəhbərliyinə minnətdarlığını bildirib. Zaur Ələkbərov qeyd edib ki, Akademiyanın yaradılmasında məqsəd ölkəmizin əmək bazarındakı ehtiyacları nəzərə alaraq peşəkar İT mütəxəssislərinin hazırlanmasına dəstək olmaqdır. Azərbaycan Beynəlxalq Bankının Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində Akademiyada təhsil ödənişsiz olacaq. CİSCO, WiX, SİGMA və s. bu kimi qurumlar təmsil olunan və İT təhsili sahəsində bir çox qlobal şirkətlərə tərəfdaşlıq köməyi göstərən “DAN.IT” mərkəzi də Azərbaycan Beynəlxalq Bankının ölkəmizin biznes mühitində ilk dəfə olaraq həyata keçirdiyi bu sosial layihənin icrasında yaxından iştirak edəcək. IBA Tech Akademiyasına sentyabrın 9-dan qəbul başlayıb və proqramlarında iştirak üçün müraciət edənlər arasından 2 istiqamət üzrə 100 tələbə seçiləcək. Namizədlər onlayn ərizə göndərdikdən sonra seçim 4 mərhələ üzrə aparılacaq: qeydiyyat, məntiq testi, texniki test və fərdi müsahibə. Təlimlər isə oktyabrın 10-dan Bakıda keçiriləcək.

“DAN.IT” mərkəzinin nümayəndələri isə bildirib ki, TELEM metodikasının prinsiplərinə görə, IBA Tech Akademiyasına müraciət edən şəxslərin texniki təhsilli şəxslər olması mütləq şərt deyil. Çünki burada hər kəs sıfırdan başlayaraq öyrədiləcək. Tədbirdə o da vurğulanıb ki, burada təhsil almaq istəyən şəxslərin adekvat məntiqi təfəkkürə malik olması, yüksək texnologiyalara maraq göstərməsi, öyrəndiklərini təcrübədə tətbiq etmək marağı çox mühümdür.

Tədbirin sonunda tələbələrin sualları cavablandırılıb.

**Müşfiq MİRZƏ,**
**“Respublika”.**

# Paytaxtda daha bir həyət abadlaşdırılıb

**Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi uğurla davam edir.**



Layihə çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Yasamal rayonu, Yeni Yasamal qəsəbəsi, 2-ci massiv ünvanında 1400 nəfər sakinin yaşadığı iki 10 bloklu binanı əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma vərdişlərinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, süni örtüklü mini futbol, şahmat, uşaq meydançaları salınıb, 100 metr uzunluğunda velosiped yolu çəkilib. Eyni zamanda, ərazidə 4 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.



Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac və kollar əkilib və 160 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Yasamal rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan otuz birinci həyətdir.

**Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat Xidməti.**

# Cəmiyyətin sədr müavinləri vətəndaşlarla görüşüblər





**Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin vətəndaşların qəbulu cədvəlinə uyğun Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavinləri Zakir Quliyev Qusar rayonunda, Rafiq Aslanov isə Quba rayonunda vətəndaşları fərdi qaydada qəbul ediblər.**

Müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi, yeni subartezian quyularının qazılması, sel sularına qarşı mühafizə bəndlərinin tikilməsi, suvarma kanallarının beton üzlüyə alınması və müxtəlif məsələləri əhatə edib.

Qəbulda hər bir vətəndaşın müraciətini dinləyən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavinləri şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə qəbulda iştirak edən məsul işçilərə müvafiq tapşırıqlar veriblər. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# "YEMLƏMƏDƏ İNNOVATİV YANAŞMA" MÖVZUSUNDA ELMİ-PRAKTİKİ KONFRANS






**Aqrar Elm və İnnovasiya Mərkəzi Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun təşkilatçılığı ilə "Yemləmədə innovativ yanaşma" mövzusunda elmi-praktiki konfrans keçirilib. Konfransda heyvandarlar, yerli yem zavodlarının və Gürcüstanın "Nutrimax" yem zavodunun nümayəndələri, alimlər, baytar, zootexnik ixtisaslı tələbələr iştirak ediblər. Konfransda yem istehsalının hazırkı vəziyyəti, mövcud problemlər və onların həlli yolları, gələcək perspektivlər, bu sahəyə innovativ yanaşma metodları, beynəlxalq təcrübənin tətbiqi və sairə kimi mövzular mütəxəssislər tərəfindən müzakirə olunmuşdur.**

Konfransı giriş sözü ilə açan Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun direktoru Mahir Hacıyev qonaqları və iştirakçıları salamlayaraq, respublikada kənd təsərrüfatının, eləcə də onun aparıcı sahələrindən olan heyvandarlığın inkişafının daim diqqət mərkəzində saxlanıldığını və prioritet məsələ olduğunu diqqətə çatdırıb. Qeyd etdi ki, son illər heyvandarlıqla məşğul olan təsərrüfat subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi, məhsuldar cins mal-qaranın alınıb gətirilməsi, süni mayalandırmanın tətbiqi, qarışıq yem istehsalı müəssisələrinin fəaliyyətə başlaması, təbii yem və otlaq sahələrinin su təminatının yaxşılaşdırılması, həmçinin qəbul olunmuş Dövlət proqramlarında nəzərdə tutulan vəzifələrin icrası heyvandarlığın inkişafına öz müsbət təsirini göstərib.

Kənd Təsərrüfatı Nazirliyinin "Heyvandarlığın təşkili və monitorinqi" şöbəsinin müdiri Esmira Lətifova dövlət səviyyəsində həyata keçirilən tədbirlər haqqında iştirakçılara əhatəli məlumat verib. Şöbə müdiri çıxışında qüvvəli yemləndirmənin iqtisadi əhəmiyyəti haqqında elmi məlumatları diqqətə çatdırıb.

Aqrar Elm və İnnovasiya Mərkəzinin şöbə müdiri Nicat Nəsirli təsərrüfatların iqtisadi baxımdan rentabelli fəaliyyət göstərməsi üçün rasiona uyğun yemləndirmə, yeni bəsləmə texnologiyalarının üstünlüyü, tövlə şəraitinin düzgün təşkili haqda geniş söhbət açıb.

ADAU-nun elmi işlər üzrə prorektoru Ramin Məmmədov isə son illər təhsil ocağında gənc kadrların hazırlanması baxımından yaradılan münbit mühitdən, həyata keçirilən yeni islahatlardan, aparılan məqsədyönlü işlər haqqında danışıb.

Daha sonra Əkinçilik Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri Sevil Abbasquliyeva və "Nutrimax" MMC-nin "Heyvanların yemləndirilməsi" şöbəsinin müdiri Revaz Lapaçi alternativ yemləndirmə metodları haqqında təqdimatla çıxış ediblər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

*Pambıq yığımı – 2019*

# Maşınlar tarlalara çıxır, yığım sürətlənir

*Saatlı rayonundakı "Agro-Az" MMC pambıq yığımını mütəşəkkil təşkil edib*

Saatlı rayonundakı "Agro-Az" MMC adlanan pambıq emalı zavodu "ağ qızıl" istehsalında davamlı müvəffəqiyyətlər əldə edir. İlk öncə qeyd edək ki, bu müəssisə strateji məhsul-pambıqçılığın arxa plana keçdiyi vaxtlarda da öz işini dayandırmadı. Zavodun təsisçisi, respublikada təcrübəli pambıqçı mütəxəssis kimi tanınan Vahid Hüseynov bu qiymətli məhsulun istehsalına bir il olsun belə ara vermədi. Dövlət başçısı cənab İlham Əliyevin şəxsi təşəbbüsü ilə ölkədə aqrar sahənin, onun vacib qolu olan pambıqçılığın inkişafı son illərdə sözün əsl mənasında prioritet məsələyə çevrilib. Ölkə rəhbərinin qərar və göstərişlərindən ruhlanan "Agro-Az" MMC kollektivi fəaliyyət dairəsini genişləndirir, öz zəngin təcrübəsi sayəsində qiymətli məhsulun istehsalını ilbəil artırır. Hazırda "Agro-Az" MMC fermerlər arasında nüfuz sahibidir, nəinki Saatlıda, hətta ətraf rayonlarda əsl təcrübə məktəbinə çevrilib. "Agro-Az" MMC yeni yığım mövsümünü tarlaların bol məhsulu ilə qarşılayıb. **Zavodun direktoru Yaşar Hüseynov** bol məhsulun yığımına fermerlərin mütəşəkkikliklə başladıqlarını dedi:





- Əvvəlcə onu deyim ki, istehsal edib dünya bazarlarına çıxardığımız məhsulun satışından dövlətimizin büdcəsinə hər il xeyli vəsait daxil olur. Təkcə bu fakt ölkə Prezidenti cənab İlham Əliyevin iqtisadiyyatımızın inkişafına göstərdiyi düzgün istiqamətin bariz nümunəsidir. Əlbəttə, getdiyin yol işıqlı, uğrunda çalışdığın məqsəd aydın olanda, sonsuz həvəslə, deyərdim ki, iki-üç qat ruh yüksəkliyi ilə işləyirsən. Bunun nəticəsidir ki, zavodumuz pambıq istehsalını ildən-ilə genişləndirir. Bu il 5 min hektar sahədə pambıq əkmişik. Əkin sahələrinin 4500 hektarı Saatlı, 500 hektarı Sabirabad rayonu ərazisindədir. 1098 nəfər fermerlə müqavilə bağlamışıq. Məhsulun becərilməsi, bütün aqrotexniki tələblərə əməl olunması daima MMC-nin diqqət mərkəzindədir. Bu məqsədlə fermerlərə avans olaraq bugünkü günə kimi 3 milyon 300 min manat nağd pul vermişik. Sahələrdə bol məhsul var. Yığıma mütəşəkkil hazırlaşmışıq. Zavod və məntəqələr məhsulun qəbuluna tam hazır vəziyyətdədir. Pambığın sahələrdən daşınması, işçilərə nəqliyyat xidməti göstərilməsi üçün 35 ədəd nəqliyyat traktoru, 50 ədəd qoşqu, 2 ədəd pambıqyükləyicisi, 2 ədəd "Kam-az" yük maşını fermerlərin ixtiyarındadır. Məhsulun yarısını Amerika istehsalı olan 18 ədəd pambıqyığan maşınla toplamağı nəzərdə tutmuşuq. Ayrı-ayrı briqadalar əllə məhsul yığan işçiləri yığıma cəlb edib.

Yeni mövsümdə əlverişli hava şəraiti tarlalarda bol məhsul yetişdirməyə imkan yaratdı. Bu il hektardan 25-30 sentner məhsul gözləyirik. Onu da deyim ki, pambıqçılığın inkişafına göstərilən qayğı və diqqət keçmişdən bu qiymətli bitkinin əkilib becərilməsi ilə məşğul olan insanlara iş yeri tapmaqda yeni meydan açdı. Təkcə bizim zavodda hazırda 140 nəfər Saatlı sakini daimi işlə təmin olunub. Yığım dövründə isə daha 100 nəfər mövsümi işə cəlb ediləcək.

"Ağ qızıl" toplanışı davam edir. Məhsulu tez, itkisiz yığmaq üçün bütün imkanlardan istifadə edirik.

**Alışan ASLANOV,**
**Tofiq HÜSEYN,**
**Saatlı rayonu.**

# Ağcabədi: tarlalarda məhsul boldur

**Aqrar sahəyə göstərilən diqqət və qayğı, fermer və sahibkarların güzəştli şərtlərlə kredit, toxum, gübrə, texnika almaq imkanlarına malik olması, əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq üçün dövlət tərəfindən subsidiya verilməsi kənd təsərrüfatının, o cümlədən pambıqçılığın inkişafına müsbət təsir göstərir.**

Prezident İlham Əliyevin ölkəmizdə aqrar sektorun ənənəvi sahəsi olan pambıqçılığın inkişafı ilə əlaqədar verdiyi tövsiyə və tapşırıqlara müvafiq olaraq rayonda bu sahənin dirçəldilməsi istiqamətində mühüm addımlar atılıb.

Ölkəmizdə aqrar sektorun ənənəvi sahəsi olan pambıqçılığın inkişafına göstərilən dövlət qayğısı Ağcabədi rayonunda torpaq sahiblərinin bu sahəyə marağını ildən-ilə artırır. Rayonun iqlim şəraiti, sakinlərin pambıqçılıq sahəsində təcrübəsi pambıq istehsalını artırmaq üçün stimul yaradır.

Bu il rayonda 10 min 452,25 hektar sahədə çiyid səpini həyata keçirilib. Pambıq əkinlərinin 5152,25 hektarı "MKT İstehsalat Kommersiya" MMC, 1300 hektarı "P-Aqro" MMC, 4000 hektarı isə "Azərpambıq" MMC ilə müqavilə əsasında becərilib.

Yüksək məhsul əldə etmək üçün əkin sahələrində aqrotexniki becərilmə qaydalarına ardıcıl və düzgün əməl olunub, cərgələrarası becərmələr, alaq otlarına və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri vaxtında aparılıb, bitkilər tələbata uyğun optimal müddətdə mineral gübrə və suvarma suyu ilə təmin edilib. Nəticədə tarlalarda bol məhsul yetişib. Pambığın maşınla yığılması üçün defolyasiya işləri aparılıb.

Bir neçə gündür ki, Ağcabədi pambıqçıları məhsul yığımına başlayıblar. Bütün qüvvələr mühüm strateji məhsul olan pambığın tez və itkisiz yığılmasına səfərbər edilib. Pambıq yığımına 40-dan çox pambıqyığan kombayn, həmçinin kifayət qədər traktor və qoşqu cəlb olunub. Bu günədək tarlalardan 803,22 ton məhsul yığılıb. "Ağ qızıl" ustaları təsərrüfat ilini uğurla başa vurmağı, 26 min tondan artıq pambıq istehsal edərək, strateji məhsulun tədarükündə respublikanın qabaqcılları sırasında dayanmaq əzmindədirlər.



Qeyd edək ki, ötən il rayonun "ağ qızıl" ustaları 10 min hektarda pambıq becərib, 23 min 305 ton məhsul istehsal ediblər. Ağcabədi rayonu həm pambığın tonuna, həm də hektarın orta məhsuldarlığına görə respublikanın pambıqçılıq rayonları arasında qabaqcıl sıralarda olub.

Sübh tezdən qaş qaralana kimi tarlalarda yığım davam edir, bol məhsul toplayan pambıqçılar yaqxşı da əmək haqqı alırlar. Bir sözlə, Ağcabədinin keşmiş şöhrəti bərpa olunur, "ağ qızıl" sərvətə çevrilir, adamların həyat şəraitinin yaxşılaşmasına təsir göstərir.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Aqrar sahənin inkişafı ərzaq bolluğu deməkdir

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və birbaşa dəstəyi nəticəsində ölkənin aqrar sektorunda dayanıqlı və dinamik inkişaf təmin edilmiş, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşması üçün əlverişli mühit yaradılmışdır. Məhz belə dəstəyin nəticəsidir ki, cari ildə ölkədə aqrar sektorda nəzərəçarpacaq inkişafa nail olunmuş, kənd təsərrüfatı məhsullarının ixracı xeyli artmış, ölkədə etibarlı ərzaq təhlükəsizliyinin dayanıqlılığı təmin edilmiş, ümumdaxili məhsul buraxılışında aqrar sektorun payı xeyli yüksəlmişdir.**

Respublikamızın əldə etdiyi belə nailiyyətlərdə Cəbrayıl rayonunun az da olsa payı vardır. Belə ki, 1993-cü ilin 23 avqustunda rayon ərazisi erməni hərbi birləşmələri tərəfindən işğal edildiyindən əhalimiz respublikamızın 50-dən çox şəhər və rayonunda məskunlaşmaq məcburiyyətində qalmışlar. Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi məqsədi ilə Biləsuvar rayonu ərazisində məskunlaşmış 2698 ailənin hər birinə bərabər qaydada olmaqla müvəqqəti istifadə üçün 0,59 hektar, 1858 ailənin hər birinə isə 0,40 hektar əkin üçün torpaq sahəsi verilmişdir. Bununla yanaşı, məcburi köçkünlərin şəxsi vəsaitləri hesabına ətraf ərazilərdəki torpaqların əkinəyararlı hala salınması və uzunmüddətli icarəyə alınma torpaqları hesabına əkin sahələri xeyli genişləndirilmiş, həmin torpaqlarda cari ilin məhsulu üçün 2980 hektar payızlıq taxıl, 159 hektar müxtəlif yazlıq bitkilər, 948 hektar yem bitkiləri (o cümlədən yonca), 130 hektar təkrar qarğıdalı əkilmişdir.

Cari ildə rayon üzrə bütün əkin sahələrində aqrotexniki tədbirlər uğurla həyata keçirilmiş, fermerlərə DAİM-in mütəxəssisləri və nazirliyin rayon tabeli qurumları tərəfindən vaxtaşırı maarifləndirici seminarlar vasitəsi ilə dəstək göstərilmişdir. Aparılmış tədbirlərin nəticəsidir ki, bu il sahələrdən 10185 ton taxıl, 536 ton kartof, 122,0 ton tərəvəz yığılmışdır. Yaxşı haldır ki, bütün növlər üzrə məhsuldarlıq göstəricilərində dinamik artıma nail olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqram"ına uyğun olaraq ənənəvi kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi və bununla da ixracyönümlü məhsul istehsalının daha da artırılması məqsədi ilə məcburi köçkünlərimizin kompakt məskunlaşdığı Biləsuvar rayonu ərazisində 102,2 hektarda pambıq əkilmişdir. Sahələrdə aqrotexniki tədbirlər DAİM-in mütəxəssislərinin birbaşa nəzarəti altında aparılmış, 39 nəfər məhsul istehsalçısı ilə emal müəssisəsi arasında bağlanmış müqaviləyə uyğun olaraq hər hektardan 25 sentner olmaqla ümumilikdə 255 ton məhsul götürülməsi proqnozlaşdırılsa da sahələrdə və hər hektardan 30 sentnerdən çox məhsul gözlənilir. Baramaçılığın və ipəkçiliyin inkişafına dair Dövlət Proqramının icrası istiqamətində də işlər davam etdirilmişdir. Bu məqsədlə 2016-2018-ci illərdə rayona Çin Xalq Respublikasından 47,5 min ədəd, daxili istehsaldan isə 64 min ədəd olmaqla ümumilikdə 111,5 min ədəd tut tingi verilmiş və 200 nəfərdən çox istehsalçı arasında paylanılaraq becərilməsi davam etdirilmişdir. Cari ildə rayon üzrə 78 istehsalçı tərəfindən 4840 kiloqram barama istehsal edilmiş, ümumilikdə istehsalçıların ailə büdcələrinə 1 ay ərzində 43,5 min manat vəsait daxil olmuşdur. Hazırda yeni tut tinglərinin əkini hesabına tut bağlarının sahəsi 14 hektardan 25 hektara çatdırılmışdır.

Kənd təsərrüfatı məhsullarının artırılmasında mineral gübrələrin üstünlükləri barədə fermerlərlə maarifləndirici söhbətlər daha da genişləndirilmiş, gübrələrdən istifadənin təşviqi istiqamətində qabaqcıl fermerlərin nəticələri barədə əsaslandırılmış işgüzar görüşlərin sayı artırılmışdır. Artıq fermerlərdə bu sahəyə maraq xeyli gücləndirilmişdir. Cari ildə payızlıq taxıl sahələrinə əsas şum altına verilən gübrələr də nəzərə alınmaqla fermerlər tərəfindən 282 ton mineral gübrə istifadə edilmişdir ki, bu da ötən illə müqayisədə xeyli çoxdur.

Əhalinin heyvandarlıq məhsullarına tələbatının daxili istehsal hesabına ödənilməsini daha da yaxşılaşdırmaq, bu məhsullar üzrə ehtiyacların idxaldan asılılığını minimuma endirmək istiqamətində də işlər davam etdirilmişdir. Cari ildə rayonda iribuynuzlu heyvanların sayı 10765 başa, xırdabuynuzluların sayı 111854 başa çatdırılmışdır.

İribuynuzlu heyvanların cins tərkibini yaxşılaşdırmaq və məhsuldarlıq göstəricilərini daha da yüksəltmək məqsədi ilə cari ilin müvafiq dövründə 498 baş inək və düyədə süni mayalanma aparılmışdır ki, bu da inək naxırının 26 faizini təşkil edir.

Heyvandarlığın yem təminatını daha da yaxşılaşdırmaq üçün 948 hektarda yonca, 130 hektarda təkrar qarğıdalı, 550 hektarda arpa əkilmişdir. Sahələrdən 1680 ton arpa, 3425 ton yonca otu, 1300 tondan çox yaşıl qarğıdalı kütləsi istehsal edilmiş, ümumilikdə əhalinin şəxsi təsərrüfatlarında olan mal-qaranın yemə olan tələbatının tam əksəriyyətinin yerli istehsal hesabına təmin edilməsi üçün baza yaradılmışdır.

İşğaldan azad edilmiş rayonun Cocuq Mərcanlı kəndində ölkə Prezidentinin birbaşa dəstəyi və tapşırığı ilə genişmiqyaslı tədbirlər həyata keçirilir. Artıq kənddə 150 ailə üçün müasir tələblərə cavab verən evlər tikilib istifadəyə verilmiş, ora köçürüləcək 150 ailənin 132-si artıq kənddə məskunlaşdırılıb. Əhalinin məşğulluğunu təmin etmək məqsədi ilə ilkin olaraq 50 ailəyə 100 hektara yaxın əkin üçün torpaq sahəsi verilmişdir. Hazırda Cocuq Mərcanlıda əhalinin məşğulluğunun təmin edilməsi məqsədi ilə 15 ailənin hər birinə 10 arı ailəsi, 15 ailəyə hər biri 160 kvadratmetr sahəsi olan istixana, 23 ailəyə özünüməşğulluq proqramı çərçivəsində mal-qara verilmişdir. Əkin sahələrini suvarma suyu ilə təmin edəcək nasos stansiyası istifadəyə verilmişdir. Yaradılmış imkanlar hesabına cari ilin iyul-avqust ayında parniklərdə aparılmış əkinlər hesabına 5 tondan çox xiyar istehsal edilmişdir.

Cari ilin ötən aylarında DAİM yanında fəaliyyət göstərən monitorinq qrupu tərəfindən taxıl səpininin vəziyyəti, toxumçuluq təsərrüfatlarında istehsal edilmiş toxumların keyfiyyət göstəriciləri, mineral gübrələrdən istifadənin vəziyyəti və təsərrüfatın digər prioritet sahələri ilə bağlı monitorinqlər keçirilmiş, aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün operativ tədbirlər görülmüş, Fermerlər şurasının fəaliyyətinə əməli köməkliklər göstərilmiş, onların təklifləri üzrə qəsəbələrdə toxum, mineral gübrə satışı təşkil edilmiş, fermerlərlə bir neçə sahə üzrə maarifləndirici seminarlar keçirilmişdir.

İl ərzində DAİM tərəfindən nazirliyin aidiyyəti qurumları ilə müntəzəm əlaqələr yaradılmış, daxil olmuş bütün tapşırıqların vaxtında və yüksək səviyyədə icra edilməsinə səy göstərilmiş, ayrı-ayrı sahələr üzrə görülmüş işlərin nəticələri barədə məlumatların nazirliyə göndərilməsi təmin edilmişdir.

Görülmüş işlərlə yanaşı qarşıda daha geniş işlərin həyata keçirilməsi nəzərdə tutulur. Hədəflərimiz növbəti ildə taxıl istehsalını 11 min tona, pambıq istehsalını 350 tona, barama istehsalını 5-6 tona çatdırmaq, heyvandarlıqda artım tempini sabit saxlamaq, daxili bazarın qorunması üçün istehsalçılar arasında maarifləndirici tədbirləri daha da genişləndirməkdir.

**Şahin ŞİRİNOV,**
**Cəbrayıl rayonu Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru.**

# Ədalətli sülhün təmin edilməsi insan hüquqlarının qarantıdır

**Buna görə də Azərbaycan tarixdə ikinci dəfə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra BMT-nin tamhüquqlu üzvü və beynəlxalq aləmdə müstəqil və etibarlı tərəfdaş kimi ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək hər kəsin hüquq və azadlıqlarının təmin edilməsinə əsaslanan, sülhsevər, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir.**

Təqdirəlayiq haldır ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, insan hüquqlarının inkişafına xidmət edən bu islahatlar Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün bunların nəticəsidir ki, hazırda ölkəmizdə insan hüquqlarının səmərəli təmini, qanunun aliliyinə hörmət edilməsi üçün dövlətlə insanlar arasında qarşılıqlı etimad, dəstək və əməkdaşlıq harmoniyası üzərində qurulmuş əmin-amanlıq, daxili sabitlik və bunun üçün münbit şərait mövcuddur.

Sülhün qorunması, insanların əmin-amanlıqda yaşaması, amansız müharibələrin, hər cür zorakılığın dayandırılması arzusu bütün tarix boyu bəşəriyyəti düşündürüb. Amma təəssüf ki, tarix boyu, bəlkə də, elə ən çox pozulan bu arzu, bu istək olub.

Sülh - insanlar arasında səmimi dostluq münasibətlərinin və qarşılıqlı əməkdaşlıq əlaqələrinin yaranması ilə bağlı körpülərin qurulması, ayrı-seçkiliklə mübarizə, insan hüquqlarının və qayğıya ehtiyacı olan şəxslərin müdafiə edilməsi deməkdir. Bu baxımdan bəşəriyyətin daim əbədi sülh axtarışında olması, sülh, dinclik, əmin-amanlıq uğrunda mübarizə aparması heç də təsadüfi olmamışdır.

Məhz elə bütün bunların nəticəsidir ki, Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Məclisinin 1981-ci ildə qəbul etdiyi müvafiq qətnamə ilə Beynəlxalq Sülh Günü təsis edilmiş və ilk dəfə 1982-ci ilin sentyabrında qeyd olunmuşdur. Elə o vaxtdan etibarən də hər il sentyabr ayının hər 3-cü çərşənbə axşamı Beynəlxalq Sülh Günü kimi qeyd edilirdi. Lakin 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif olunan qətnamə ilə 2002-ci ildə BMT tərəfindən Beynəlxalq Sülh Günü üçün 21 sentyabr dəqiq tarix kimi müəyyənləşdirilmiş və ümumdünya atəşkəs günü elan edilmişdir.

Beynəlxalq Sülh Günü insanların sülh şəraitində yaşamaq hüququ ilə yanaşı, bütün insan hüquq və azadlıqlarının gerçəkləşməsini, hər bir istəyə yalnız sülh şəraitində çatmağın mümkünlüyünü təcəssüm etdirir. İnsanlar arasında sülh dəyərlərini yaymaq, sülh mədəniyyətini təbliğ etmək zəruridir. Ümumiyyətlə, sülh və sabitlik inkişafın təməlidir. Bu proses hər ölkədə və regionda, onun tarixindən, mədəniyyətindən və ənənələrindən asılı olaraq özünəməxsus şəkildə inkişaf etdirilir.

BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında yerləşən "Sülh Zəngi"nin çalınması ilə başlayan Beynəlxalq Sülh Gününün əsas məqsədi bütün ölkələri və xalqları həmin gün hərbi əməliyyatları dayandırmağa və ya sülh problemləri ilə bağlı təhsil və ictimai maarifləndirmə kampaniyaları keçirtməyə dəvət etmək olmuşdur.

Bu tarix hər il müxtəlif mövzular altında qeyd edilir və 2019-cu ildə 21 sentyabr - Beynəlxalq Sülh Günü bütün dünyada sülhün qorumaq və təbliğ etmək üçün bir yol olaraq iqlim dəyişikliyinə qarşı mübarizə məqsədilə "Sülh üçün İqlim Fəaliyyəti" mövzusuna həsr edilmişdir. Bu isə onunla əlaqələndirilir ki, iqlim dəyişikliyi beynəlxalq sülhə və təhlükəsizliyə açıq-aydın təhdidlər yaradır. Təbii fəlakətlər münaqişələr kimi insanın yerini dəyişdirir, milyonlarla insanı evlərini tərk edərək başqa yerlərdə təhlükəsizlik baxımından çətinlik olmayan məkan axtarmağa məcbur edir. Su və əkin sahələrinin şoranlaşması ərzaq təhlükəsizliyinə ciddi zərbə vurur və bu da insanların sağlamlığına mənfi təsir göstərir.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və ətraf rayonlar daxil olmaqla ölkəmizin ərazisinin iyirmi faizi işğal edilmiş, bir milyona yaxın soydaşlarımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Həyata keçirilən vandalizm nəticəsində nəinki insanların hüquq və azadlıqları kobud şəkildə pozulmuş, həmçinin, mədəniyyət abidələri dağıdılmış, ekoloji mühitə, dünya ekologiya sisteminə ölçüyəgəlməz ziyanlar vurulmuşdur. Ermənistan dövlətinin vurduğu və bu gün də davam edən zərərlər yalnız Azərbaycana deyil, bütövlükdə bəşəriyyətə qarşı yönəlmişdir.

Həyata keçirilən vandalizm nəticəsində nəinki insanların hüquq və azadlıqları kobud şəkildə pozulmuş, həmçinin, mədəniyyət abidələri dağıdılmış, ekoloji mühitə, dünya ekologiya sisteminə ölçüyəgəlməz ziyanlar vurulmuşdur. Ermənistanın vurduğu və bu gün də davam edən zərərlər yalnız Azərbaycana deyil, bütövlükdə bəşəriyyətə qarşı yönəlmişdir.

Araz çayının yuxarı axınında yerləşən Ermənistanın ərazisindən bu su obyektinə lazımi təmizlənmə aparılmadan əksər hallarda isə birbaşa axıdılan məişət və sənaye mənşəli çirkab suların təsiri nəticəsində çayda bəzi zərərli maddələrin miqdarı sanitar-ekoloji normadan artıq olması monitorinqlər nəticəsində müşahidə olunur.

Beynəlxalq ekologiya hüququnun prinsiplərinə, o cümlədən "Ətraf mühitin problemlərinə dair Stokholm Bəyannaməsi"nin (1972-ci il) və "Ətraf mühit və inkişafa dair Rio-de Janeyro Bəyannaməsi"nin (1992-ci il) müddəalarına zidd olaraq cəzasızlıqdan istifadə edərək işğal altında olan Zəngilan rayonu ərazisində dünyada ikinci ən böyük - 117 hektar sahəsi olan təbii çinar meşələri məhv edilmiş, digər ərazilərdə isə meşə və ətraf yaşıllıqlar, əkinə yararlı sahələr yandırılmış, beləliklə də ətraf mühitə və təbii sərvətlərə ölçüyəgəlməz ziyan vurulmuşdur.

Beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinə, BMT-nin qətnamələrinə, Avropa Şurasının qətnamə və tövsiyələrinə məhəl qoymayan Ermənistan əzəli torpaqlarımızı hələ də işğal altında saxlayır, etnik təmizləmə siyasətini davam etdirir.

Bütün bu qlobal çətinliklərə baxmayaraq ölkəmizdə sağlam ətraf mühitin mühafizəsi sahəsində kompleks tədbirlər həyata keçirilir, əhalinin ekoloji tələblərə cavab verən keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən mühüm tədbirlər görülür.

İşğal edilmiş Dağlıq Qarabağ və yeddi ətraf rayonun Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olduğunu beynəlxalq hüquq, o cümlədən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli məlum Qətnamələri, BMT Baş Məclisinin "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı 14 mart 2008-ci il tarixli Qətnaməsi, AŞPA-nın Azərbaycan ərazilərinin erməni hərbi qüvvələri tərəfindən işğal edildiyini və Dağlıq Qarabağ regionunun separatçı qüvvələr tərəfindən idarə olunmasını təsdiq edən 2005-ci il tarixli 1416 saylı qətnaməsi və 1690 saylı tövsiyəsi, Avropa Parlamentinin Dağlıq Qarabağla bağlı 23 oktyabr 2013-cü il tarixli qətnaməsi bir daha sübut edir.

Lakin ermənilər tərəfi hər zaman olduğu kimi, qeyri-konstruktiv mövqe nümayiş etdirərək, atəşkəs rejimini mütəmadi olaraq pozur, regionda sülhün bərqərar olmasına maneçilik törədir. Ermənistanın mülki əhaliyə qarşı yönəlmiş soyqırımı siyasəti bu gün də davam etdirilir, dinc əhalinin, o cümlədən uşaqların qətlə yetirilməsi ilə nəticələnir.

Ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi və xahişi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını almış, 1994-cü ilin mayında atəşkəs haqqında müqavilənin imzalanmağa müharibənin müvəqqəti də olsa, dayandırılmasına, regionda sabitliyin yaranmasına nail olmuşdur. Bu, həm dövlətimizin sülh arzusunun ifadəsi, həm də həqiqi sülhün bərqərar olması üçün Vətəni hər cür müdaxilədən qoruyacaq və sülhün təminatı rolunda çıxış edəcək hərbi qüdrətə gedən yolun başlanğıcı idi.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş sülhsevər xarici siyasət ilk növbədə Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirməyə və əbədiliyini təmin etməyə yönəlmişdir. Bu sahədə qarşıya qoyulan əsas vəzifələrdən biri də dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələri yaratmaq və bunu daha da inkişaf etdirməkdən ibarətdir. Həmin siyasətin uğurla davam etdirilməsi nəticəsində artıq ölkəmiz bütün dünyada inkişaf etmiş demokratik, sülhsevər bir dövlət kimi tanınmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 il davam edən bu təcavüzə son qoyulmasına, münaqişənin sülh yolu ilə nizamlanmasına mütəmadi səylər göstərir, təşəbbüslər irəli sürür, münaqişənin beynəlxalq hüquq norma və prinsiplərinə uyğun yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsinin, zəbt edilmiş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin çıxarılmasının, məcburi köçkünlərin öz yurdlarına qaytarılmasının zəruriliyini dəfələrlə nüfuzlu beynəlxalq qurumların qarşısında qaldırır. Bu isə beynəlxalq qurumların müvafiq qərarlarında, o cümlədən son dövrdə Avropa Parlamentinin 12 dekabr 2018-ci ildə qəbul etdiyi və Azərbaycanın ərazi bütövlüyünün bir daha vurğulandığı Qətnamədə öz əksini tapmışdır.

Ölkə başçısının həyata keçirdiyi siyasət nəticəsində ölkəmizdə insan hüquqlarının davamlı inkişafı və təmin olunması istiqamətində müvafiq qanunvericilik aktları qəbul olunur, zəruri tədbirlər həyata keçirilir. Ölkəmiz günü-gündən inkişaf edir, beynəlxalq aləmdə nüfuzu artır. Aparılan islahatlar və həyata keçirilən tədbirlər idarəetmənin təkmilləşməsi, insanların öz hüquqlarını həyata keçirməsi üçün böyük imkanlar yaradır.

Son dövrlərdə respublikamızda keçirilmiş, insan hüquq və azadlıqlarının inkişafına, hüquq mədəniyyətinin yüksəlməsinə mühüm təsir göstərən, böyük ictimai və siyasi əhəmiyyətə malik beynəlxalq səviyyəli, habelə kütləvi xarakterə malik tədbirlər, idmanın müxtəlif növləri üzrə beynəlxalq yarışlar ölkəmizin beynəlxalq aləmdə nüfuzunun və müsbət imicinin daha da möhkəmlənməsi baxımından böyük əhəmiyyət daşımışdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması istiqamətində çox sistemli və ardıcıl işlər görülür. Eyni zamanda, Fondun vitse-prezidenti Leyla Əliyevanın gerçəkləşdirdiyi "Xocalıya Ədalət" kampaniyası bu gün Xocalı hadisələri barədə dünya ictimaiyyətinin məlumatlandırmaq və beynəlxalq-hüquqi tanınmasına nail olmaq məqsədilə Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerika ölkələri tərəfindən Xocalı soyqırımının tanınmasını təmin etməkdədir.

Bütün beynəlxalq tədbirlərdə Müvəkkil dünya birliyinə, mötəbər beynəlxalq qurumlara və həmkarlarına müraciət edərək, Azərbaycana qarşı aparılan uzunmüddətli erməni təcavüzünə, kütləvi şəkildə insan hüquqlarının pozulmasına, eyni zamanda davamlı olaraq dünya ictimaiyyətini çaşdıran saxtakarlıqlara son qoyulması məqsədilə qətiyyətli səylər göstərməyə və Azərbaycanın haqq işinə dəstək verməyə, beynəlxalq qurumları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həlli, Ermənistan silahlı qüvvələrinin işğal olmuş Azərbaycan torpaqlarından çıxarılması, Azərbaycanın BMT və dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyünün bərpa edilməsi, qaçqınların və məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması, uzun illərdən bəri pozulmuş hüquqlarının bərpası və təmini istiqamətində konkret tədbirlər görməyə çağırır.

Yeri gəlmişkən, Avropa Şurasının 70 illik yubileyinə həsr olunmuş və Avropa Şurası Parlament Assambleyasının Prezidentinin iştirakı ilə keçirilən "Bizim Hüquqlarımız, Azadlıqlarımız, Avropamız" adlı konfransda Müvəkkil çıxış edərək Avropa Şurasının regionda sülhün bərqərar olmasına, uzun illərdir bir milyondan çox qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpasına yönəlmiş, dünya dövlətlərinin fəaliyyəti üzrə əsas sənəd, yol xəritəsi olan Davamlı İnkişaf Məqsədlərinə (SDGs), o cümlədən, 16-cı məqsəd - Sülh, ədalət və səmərəli institutlar məqsədinə uyğun olaraq konkret qərarlar və tədbirlər görüləcəyinə ümidvar olduğunu bildirmişdir.

Müvəkkil çoxsaylı bəyanat, o cümlədən 20 Yanvar faciəsi, Xocalı soyqırımı, 31 Mart 1918-ci il Azərbaycanlıların Soyqırımı, habelə Dağlıq Qarabağda və onun ətraf rayonlarında Ermənistan Silahlı Qüvvələrinin azərbaycanlılara qarşı törətdikləri zorakılıqlarla bağlı və digər bəyanatlar vermiş, onları BMT-nin Baş katibinə, İnsan Hüquqları üzrə Ali Komissarına, Qaçqınlar üzrə Ali Komissarına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına və bu qurumlara üzv olan Ombudsmanlara, xarici ölkələrin Azərbaycan Respublikasındakı səfirliklərinə və respublikamızın xaricdəki səfirliklərinə, həmçinin ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən Azərbaycan diasporalarına ünvanlamışdır.

Təqdirəlayiq haldır ki, ölkə Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının (MFP) 4.10-cu bəndində də "Əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi" aidiyyəti qurumlar üçün bir vəzifə kimi təsbit olunmuşdur.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərində öz əksini tapmış 16-cı məqsəd də məhz dayanıqlı inkişaf üçün sülhsevər və açıq cəmiyyəti təşviq etmək, hamı üçün ədaləti təmin etmək və bütün səviyyələrdə effektiv, məsuliyyətli və geniş iştiraka əsaslanan təsisatlar yaratmaqdan ibarətdir.

Yeri gəlmişkən, Müvəkkil tərəfindən 18 iyun - Milli İnsan Hüquqları Günü münasibətilə ənənəvi olaraq hər il keçirilən, cari ildə isə "Ədalətli sülh və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında Ombudsmanların rolu" mövzusuna həsr olunan Ombudsmanların XVI Bakı Beynəlxalq Konfransında müzakirə olunan məsələlər, irəli sürülən təkliflər və qəbul edilən Bakı Bəyannaməsi azadlığın, sülhün, inkişafın, müstəqilliyin və ədalətin bünövrəsi olan insan hüquqlarını qorumaq naminə səmərəli əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsinə xidmət etmişdir.

Ombudsmanın təşəbbüsü ilə ənənəvi olaraq hər il Beynəlxalq Sülh Günü ərəfəsində, yəni avqustun 21-dən sentyabrın 21-dək ölkəmizdə "Sülh aylığı"nın elan edilməsi və bu aylıq çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları, beynəlxalq təşkilatlar, təhsil müəssisələri, QHT və KİV-lə əməkdaşlıqda respublikamızın hər bir rayon və şəhərlərində ictimaiyyətin fəal iştirakı ilə konfransların, dəyirmi masaların keçirilməsi, müsabiqələrin və sərgilərin təşkil edilməsi əhalinin müxtəlif qrupları arasında hüquq mədəniyyətinin, hüquq düşüncəsinin inkişaf etdirilməsi məqsədini daşımaqla universal dəyərlərin, insan hüquqlarının təbliğinə xidmət edir.

"Sülh aylığı" çərçivəsində İnsan Hüquqları üzrə Müvəkkilin, Aparatın əməkdaşlarının, Ombudsmanın Gəncə, Şəki, Quba və Cəlilabadda yerləşən və ətraf rayonları əhatə edən regional mərkəzlərinin iştirakı ilə Bakı şəhərində və respublikanın rayonlarında silsilə tədbirlər davam etdirilmiş, bununla bağlı məlumatlar mütəmadi olaraq KİV-lər vasitəsilə yayımlanmışdır.

Müvəkkil Sülh Aylığı çərçivəsində ölkəmizdə qeyd olunan Bilik günü ilə bağlı Füzuli rayonunda və Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində əhali ilə görüşmüş, təhsil, səhiyyə və sosial müəssisələrində silsilə tədbirlər keçirmişdir.

İnanırıq ki, ölkə rəhbərliyinin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində insan hüquqlarının qarantı olan ədalətli sülhün təmin edilməsinə nail olunacaq, torpaqlarımız işğaldan azad ediləcək və soydaşlarımız öz ata-baba yurdlarını qayıdacaqlar.

**Faiq AĞAYEV,**
**Ombudsman Aparatının**
**Hüquqi maarifləndirmə, elmi-analitik, informasiya və beynəlxalq əlaqələr şöbəsinin müdiri.**

# MİLLİ MƏDƏNİYYƏTİMİZİN DÜNYADA SÜLHƏ TÖHFƏSİ

**Sülh insanların hər zaman ehtiyac duyduğu ən vacib həyati şərtdir. Bu gün təlatüm içində çalxalanan dünyamızda, xüsusilə də daha həssas olan bizim regionda yerləşən xalqların sülhə daha çox ehtiyacı vardır.**

Bildiyiniz kimi, BMT tərəfindən qəbul edilən "21 sentyabr - Beynəlxalq Sülh Günü" dünya miqyasında əlamətdar gün kimi qeyd edilir. Bu da insanların münaqişəsiz və firavan yaşamaq hüquqlarının müdafiəsinə xidmət edir. BMT-nin Baş Assambleyasının 39/11 saylı 12 noyabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilən "Xalqların sülh hüququna dair" Bəyannaməsində də sülh hüququna xüsusi diqqət yetirilmişdir. UNESCO-nun 1995-ci il tarixli Dözümlülük haqqında Prinsiplər Bəyannaməsində deyildiyi kimi, tolerantlıq, sülh, ədalət, qarşılıqlı anlaşmanın əsasını təşkil edən dözümlülük "sülhü bərqərar edərək müharibə və münaqişələrin sülh və birgə yaşayış münasibətləri ilə əvəz olunmasını təbliğ edir". Lakin bütün bu təqdirəlayiq tədbirlərə rəğmən demək lazımdır ki, insanların ildə bir gün deyil, hər zaman sülh və əmin amanlıq içərisində yaşamağa ehtiyacı var.







Əslində beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bütün bu sənədlər ümumilikdə sülh hüququnun təmin edilməsinin bəşəriyyət üçün nə qədər zəruri olduğunu bir daha təsdiq edir və hər bir dövlətin üzərinə insan hüquqlarına hörmət, sülhün təmin edilməsi və qorunması öhdəliyini qoyur. Lakin dini, milli və sair ayrı-seçkiliyin tətbiqinə və ikili yanaşma siyasətinin yürüdüldüyünə göz yummağa alışmış dünyada bir çox münaqişələri və işğalçılıq siyasətini ört-basdır etmək məqsədilə "Xalqların öz müqəddəratını təyin etmək hüququ" çərçivəsində bəzi ölkələr məkrli siyasət yürütməkdədir. Buna misal olaraq Ermənistan hökuməti ən azından son 30 ildə tətbiq etdiyi dövlət siyasətinin ana xəttinə çevirdiyi və havadarlarının dəstəyilə həyata keçirdiyi işğalçılıq siyasətini belə anlayışla dünya ictimaiyyətinin gözləri önündə pərdələmək niyyətindədir. BMT nizamnaməsində təsbit edilmiş prinsiplərə, xüsusilə də ərazi toxunulmazlığı prinsipinə uyğun şəkildə müxtəlif dövrlərdə qəbul edilmiş qətnamələrin mövcudluğuna baxmayaraq, münaqişənin həllində bu vaxta qədər əsaslı dönüş əldə edilməmişdir. Fərqli dinlərə və milli-mədəni xüsusiyyətlərə malik insanların əsrlərdən bəri qarşılıqlı anlaşma şəraitində yaşadığı, sülhməramlı mövqeyi ilə daim fərqlənən müstəqil Azərbaycan Respublikasının ötən 28 illik tarixinin ən faciəli səhifəsi Ermənistanın təcavüzkar siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal edilməsi və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, əzəli torpaqlarından qovulmuş soydaşlarımızın çadır düşərgələrinə, qaçqın və məcburi köçkün qəsəbələrinə sığınması, insan hüquqlarının kütləvi şəkildə və kobudcasına pozulmasından ibarət olmuşdur.

Ümummilli liderimizin 1994-cü ildə nail olduğu atəşkəs rejiminə baxmayaraq, ötən dövr ərzində Azərbaycana qarşı düşmənçilik siyasəti davam etdirilir, atəşkəs rejimi mütəmadi pozulur, işğal altında olan torpaqlarımızda nadir tarixi abidələrimiz amansızcasına dağıdılır, milli-mədəni irsimiz mənimsənilir və cəbhə bölgəsinə yaxın inzibati ərazilərdə mülkü əhalinin həyatına təhlükə yaradır. Ermənistanın sülhə və təhlükəsizliyə saymazyana münasibətinə isə dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar tərəfindən göz yumulur. Bütün bunun məsuliyyəti Ermənistanın və onun havadarlarının üzərinə düşür. Bu neqativ proseslər regionumuzda sülhə və əmin-amanlığa daha da həssaslıqla yanaşılması zəruriyyətini yaradır.

Sülh Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir və bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, ölkə Prezidenti İlham Əliyev tərəfindən ardıcıl olaraq həyata keçirilir. Ötən dövrdə bir çox ölkələr tərəfindən Azərbaycanın ərazi bütövlüyünün tanınmasına nail olunmuş, Ermənistanın mövcud status-kvonun uzadılmasına olan marağının qarşısının alınmasına ardıcıl səylər göstərilməkdədir. Qeyd olunmalıdır ki, ölkə Prezidenti münaqişənin beynəlxalq hüququn prinsipləri çərçivəsində sülh yolu ilə həllinə çalışır.

Bildiyiniz kimi, Azərbaycan Ombudsmanının təşəbbüsü ilə elan olunan və hər il 21 avqust - 21 sentyabr tarixlərində ənənəvi olaraq keçirilən "Sülh aylığı" əhalinin müxtəlif qrupları arasında, onsuz da milli ruhumuza uyğun olan sülh və dözümlülük mədəniyyətinin inkişaf etdirilməsi və hüquqi maarifləndirmə məqsədini daşıyır, mənəvi dəyərlərin, insan hüquqlarına hörmətlə yanaşmanın təbliğinə xidmət edərək ölkəmizin sülh siyasətinə öz töhfəsini verir. Bu gün dünya ictimaiyyəti, dövlətlər Azərbaycanın haqlı mövqeyini dəstəkləyir, xalqımıza qarşı törədilmiş faciələr, soyqırımı aktları müxtəlif dövlətlər tərəfindən tanınır. Milli mədəniyyətimizin dünyada geniş təbliği, xalqımızın müxtəlif mədəniyyətlərə tolerant münasibətə malik olması ölkəmizin sülhsevər siyasətinin davamlı inkişafına edilən ən mühüm töhfələrdəndir. Ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə desək: "Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O həm insani münasibətlərin, insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir. O təkcə dinlərin bir-birinə yaxınlaşması deyil, onların bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir".

Mədəniyyət və xalqlar arasında mədəni əlaqələr ən perspektivli diplomatiya alətidir. Əsasən Vətəndaş Cəmiyyətləri və Xalq Diplomatiyası vasitəsilə xalqlar arasında qarşılıqlı mədəni əlaqələrin yaradılması və inkişaf etdirilməsi ölkələrin və xalqların yaxınlaşmasına, onların arasında mədəni münasibətlərin formalaşmasına münbit şərait yaradır. Azərbaycanda da bu sahədə mütəmadi olaraq çeşidli layihələr həyata keçirilməkdədir.

*Azərbaycanın milli mədəniyyəti tarixində xalq tətbiqi sənətinin müxtəlif sahələri geniş yayılaraq ölkəmizə şan-şöhrət gətirmiş, xalqımızı dünyada tanıtmışdır. Tətbiqi sənət növlərinin ən çox diqqət tələb edən sahəsi olmaqla yanaşı xalqımızın milli atributuna çevrilmiş Xalça sənəti bu sahədə xüsusi əhəmiyyət kəsb edir. Qonağa hədiyyə olunmuş milli incəsənət nümunələri, o cümlədən xalçalarımız hətta bir şəxsin timsalında olsa da belə, bütövlükdə xalqımıza xoş münasibət aşılayır və qədim mədəniyyətə malik olduğumuzu sübuta yetirir. Belə mədəniyyət nümunələrimiz vasitəsilə yaradılmış gözəllik dünyası xalqımıza - tariximizə, mədəniyyətimizə və ümumilikdə bütün problemlərimizə laqeyd olan buz qəlbləri əridərək siyasətdə də, xalqlar arasında da dostluğa körpü salır. Hələ 40-cı illərdə Azərbaycanda, konkret olaraq "Azərxalça" Birliyində toxunmuş SSRİ-nin ovaxtkı lideri İosif Vissarionoviç Stalinin portreti əks olunmuş xalça dünyada tiran kimi tanınmış bu şəxsin xalqımıza qarşı repressiv, (təzyiqçi) münasibətinə son qoymuş, bütünlükdə Azərbaycan xalqının öz vətənindən kütləvi deportasiyasının qarşısının alınmasında mühüm rol oynamışdır.*

1986-cı ildə Sov İKP Mərkəzi Komitəsinin Baş katibi Mixail Qorbaçov Hindistana səfərə hazırlaşarkən hədiyyə hazırlanması məqsədilə bütün 15 respublika rəhbərlərinə müraciət etmişdi. Həmin dövrlərdə Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışan Heydər Əliyev bu məsələ ilə əlaqədar Xalq rəssamı Kamil Əliyevə İndira Qandinin xalça üzərində portretinin toxunmasını tapşırmışdı. *Bütün İttifaq respublikalarından gətirilən hədiyyələr arasında Azərbaycan xalçasına istər dövlət komissiyası, istərsə də M.Qorbaçov tərəfindən xüsusi önəm verilmişdi. Bu xalça, SSRİ-nin timsalında olsa da Azərbaycan milli xüsusiyyətlərinin və hind mədəniyyətinin vəhdətini təşkil etməklə əslində iki şərq xalqlarının mədəni yaxınlığına atılmış ciddi addım idi. Kamil Əliyevin söylədiklərinə görə, həmin dövrdə "İzvestiya" qəzetində dərc olunmuş fotorəsmlərə və məqaləyə əsasən demək olar ki, bir xalça iki xalqın mədəni yaxınlaşmasına və iki dövlətin diplomatik əlaqələrinin ciddi surətdə yaxşılaşmasına səbəb olmuşdur. Bu görüş zamanı iki dövlət arasında əsasən SSRİ-nin maraqları çərçivəsində olan dəyərli müqavilələr də imzalanmışdı.*

*Belə faktları çox sadalamaq olar. Dünya xalqlarının ruhunu oxşayan xalçaçılıq əsərləri və özünəməxsus dəyərli xüsusiyyətləri ilə fərqlənən digər incəsənət nümunələrimiz milli mədəniyyətimizin demək olar ki, bütün sahələrini əhatə edir. Ümumilikdə Azərbaycan mədəniyyətini təmsil edən ayrı-ayrı incəsənət nümunələrimiz daim sülhsevərliyi ilə fərqlənən xalqımızın tolerant xüsusiyyətlərini əks etdirir. Bu ənənə xalqımızın bütün nümayəndələri kimi Azərbaycan Milli Xalça Muzeyi kollektivi tərəfindən qorunub yaşadılır. Kollektivimiz hər il Sülh Gününü xüsusi təmtəraqla bayram etməklə yanaşı, bütün fəaliyyəti dövründə dünyada və Azərbaycanda sülhə və əmin-amanlığa xidmət edən tədbirlər həyata keçirmiş və keçirməkdədir.*

*Azərbaycan Milli Xalça Muzeyində 2019-cu ilin iyul-sentyabr aylarında Fransanın məşhur Luvr Muzeyindən gətirilmiş Azərbaycan xalçalarının nümayiş etdirilməsi özlüyündə sənətə dünya ictimaiyyətinin verdiyi dəyərli qiymətin təzahürüdür və ilk növbədə Azərbaycan və Fransa xalqları arasında dostluğun və mədəni əlaqələrin genişlənməsinə xidmət edir. Muzeyimizdə 3 ay müddətində davam edən "Azərbaycan Mədəni İrsi Luvr Muzeyində" adlı sərgi təkcə yerli sakinlərin deyil, muzeyimizə gələn əcnəbi ziyarətçilərin də diqqətini cəlb etmişdir.*

*Azərbaycan Milli Xalça Muzeyində "Azərbaycan Mədəni İrsi Luvr Muzeyində" adlı sərginin açılışı mərasimində əbəs yerə deyilməmişdir: "Gözəllik dünyanı xilas edəcəkdir".*

*Ən böyük arzumuz isə sülh göyərçinlərinin işğal altında olan torpaqlarımızın üzərində süzməsini görməkdir. Beynəlxalq Sülh Günü münasibətilə xalqımıza aydın səma, sarsılmaz və əbədi sülh diləyirik.*

**Əlisəfa NURİYEV,**
**Azərbaycan Milli Xalça Muzeyinin**
**Şuşa Filialının müdiri.**

# Elmə həsr edilmiş ömür



**Tanınmış tədqiqatçı, coğrafiyaçı alim Şahvələd Xəlilov 1939-cu ildə Gürcüstan Respublikasının qədim Borçalı mahalının Qarabulaq kəndində anadan olmuşdur. 1957-ci ildə Qardabani rayonunda orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin geoloji coğrafiya fakültəsinin coğrafiya bölməsinə daxil olmuşdur. ADU-nu fərqlənmə diplomu ilə başa vurduqdan sonra müstəsna hal kimi, 1962-ci ildə Azərbaycan MEA Coğrafiya İnstitutuna işə göndərilmişdir. O vaxtdan bəri gənc Şahvələdin ömür coğrafiyası AMEA Coğrafiya İnstitutunun taleyi ilə bağlı oldu. Elmə hədsiz məhəbbəti və güclü marağı Şahvələd müəllimi Coğrafiya elminin elmi-nəzəri sirləri və mürəkkəb qanunları daha dərindən düşündürməyə başladı. Onun elmə olan dərin həvəsi ömür coğrafiyasının elmi yaradıcılıq salnaməsində öz bəhrəsini verdi. Xüsusilə aspirantlıq illərində Şahvələd müəllimin elmi təfəkküründə, elmi-nəzəri metodoloji yanaşmalarında elmin perspektiv problemləri haqqında, yaradıcılıq təcrübəsində güclü dönüş yarandı.**

Hələ çox gənc olan Şahvələd müəllimin su sferasını öyrənən hidrologiya elminin sirlərinə yiyələnməsində ilk dəfə işlədiyi "Hidrologiya" şöbəsinin güclü kollektivinin də mühüm rolu olmuşdur. Sistemli olaraq çöl tədqiqatlarının aparılmasında, çöl müşahidələrinin metodoloji normativ qaydaları, həmçinin tədqiqat metod və prinsiplərinə uyğunlaşma, adi çöl qeydlərinin aparılması təcrübəsini Şahvələd müəllim bilavasitə onlardan öyrənmişdir.

1969-cu ildə Şahvələd müəllim keçmiş sovetlər məkanında həcminə görə seçilən "Mingəçevir su anbarının lillənməsi" mövzusunda "Namizədlik" dissertasiyasını müdafiə etdi, 1996-cı ildə isə Azərbaycanda "Böyük su anbarlarının ətraf mühitlə qarşılıqlı təsirinin əsas ekocoğrafi problemləri" mövzusunda doktorluq dissertasiyasını tamamladı. Bununla da Şahvələd müəllim müstəqil ömür coğrafiyasının elmi-fəlsəfi nəzəriyyəsinin təməlini daha da dərinləşdirdi.

Tədqiqatçı alimin əsas elmi fəaliyyət mövzusu əsasını Azərbaycanda bilavasitə su anbarlarının və göllərinin hidroloji xüsusiyyətləri, su anbarlarının çirklənməsi, lillənməsi və sahil landşaftlarının dinamikası, su təsərrüfatı üzrə Dövlət layihə tədbirlərinin, o cümlədən su anbarlarının ətraf ekoloji mühitə təsiri problemlərinin tədqiqi olmuşdur. Şahvələd müəllim öz tədqiqatlarında həmişə su obyektlərinin mühafizəsi və onlardan səmərəli istifadəsi problemlərinin həllinə də yeni tətbiqi metodların işlənilməsinə xüsusilə geniş fikir vermişdir.

İlk dəfə olaraq Şahvələd müəllim Azərbaycanda bütünlüklə su anbarlarını coğrafi aspektlərinə, yaratdığı ekocoğrafi problemlərinə görə təsnifləşdirmişdir. Azərbaycanda yeni su anbarlarının coğrafi yerləşdirilməsinin əsas ekoloji-coğrafi prinsiplərini, o cümlədən onların elmi-texniki layihə və xəritələrini o işləyib hazırlamışdır. Hətta onların ətraf mühitə vurduğu ziyanın kəmiyyət və keyfiyyət təsirini, o cümlədən mövcud su anbarlarının lillənməsi, sahillərin dinamikasının coğrafi proqnozunu vermişdir. Beləliklə, Şahvələd müəllimin bir mütəxəssis kimi, Azərbaycanda su anbarlarının ekoloji coğrafiyası haqqında verdiyi kompleks proqnozları və təklifləri həmişə o dövrdəki Azərbaycan Su Təsərrüfatı Nazirliyi və müvafiq ekoloji qurumlar tərəfindən yüksək qiymətləndirilmiş və tətbiq üçün qəbul olunmuşdur.

Bunların nəticəsi olaraq Azərbaycanın iri su anbarları və onların kompleks ekoloji problemlərinə həsr etdiyi (2003-cü ildə) kitabında su anbarlarının çox yığcam formada coğrafiyasını verməsi çox təqdirəlayiq oldu. Kitabda onların kompleks coğrafi kəmiyyət və keyfiyyət parametrlərinin işlənilməsi elmdə yenilik kimi qarşılandı. Monoqrafiyanın ən mühüm elmi keyfiyyətləri və dəyərləri müəllifin indiyə qədərki Azərbaycanda su anbarlarına dair coğrafi problemlərin və mövcud tədqiqatları nəticələrinin qruplaşdırması olmuşdur. Daha doğrusu Şahvələd müəllim özlüyündə ilk dəfə Azərbaycanda müasir su anbarlarının ekoloji-coğrafi problemlərini olduqca lakonik və yüksək elmi səviyyədə tədqiq etmişdir. Həmçinin, onların ekocoğrafi problemlərinə dair yeni elmi fikir və ideyalar mühüm elmi nəticələrdir. Bu yanaşmalar elmi tədqiqatlarda müqayisə metodu kimi olduqca vacibdir. Biz vətənimizin paleocoğrafi keçmişini bilməliyik ki, yaşadığımız təbiətin sonrakı coğrafi hadisələrinə dair daha mükəmməl elmi-təcrübi reallıqlara hazır olmaq üçün.

Bu tədqiqatlara görə Azərbaycanın ən mühüm aqro həyatı əhəmiyyəti olan su anbarlarının, xüsusilə ən iri Mingeçevir, Ağstafaçay, Şəmkir, Yenikənd, Ceyranbatan, Xudafərinin və s. ekocoğrafiyası və sahil dinamikası haqqında yeni kompleks elmi məlumatların verilməsi mühüm yer tutur. Coğrafi cəhətdən böyük su anbarlarının kompleks ekocoğrafi problemləri və koordinatları bəlli olduqda onların mövcud problemlərinin rekonstruksiyası, xüsusilə, sahillərin dinamikasına dair gələcək təhlükəsizliyini təmin etmək məsələsi asanlaşır. Eyni zamanda, həmin təhlükələrə qarşı dövlət səviyyəli elmi-tətbiqi proqramların və aqrar islahatların vaxtında işlənilməsi məsələsinə zəruriyyət yaranır. Bu, olduqca böyük şərtdir. Müəllif son monoqrafiyasında iri su anbarlarının hamısının bu tipli coğrafi göstəricilərini yüksək səviyyədə vermişdir. Şahvələd müəllimin 2006-cı ildə nəşr etdirdiyi "Azərbaycanın Ekocoğrafi Problemləri" əsəri bu gün də Azərbaycanda müasir ekocoğrafi problemlər və onların həlli yollarının işlənilməsi haqqında fikirləri bir daha yenidən gündəmə gətirir.

Hazırda Azərbaycan ərazisində dövlət səviyyəsində lahiyələşdirilmiş 60-dan çox su anbarının hidrocoğrafi vəziyyətinin öyrənilməsi bilavasitə Şahvələd Xəlilovun adı ilə bağlıdır. Aqro istehsal sahəsində suvarma kanallarının, kollektor şəbəkəsinin ümumi həcmi, onlara texniki baxımsızlığı üzündən vaxtilə respublika ərazisinin 3%-ə qədərinin su altında qalması fikri (ehtimalı) Şahvələd Xəlilova məxsusdur. Respublika ərazisində bəzən tələsik tikilən su qurğularının gələcəkdə hansı coğrafi fəsadların törətməsini çəkinmədən tədqiqatlarının yekununda həmişə göstərirdi. Məsələn, o tədqiqatlarının birində qeyd edirdi ki, təkcə su anbarlarının sahillərinin uçması nəticəsində vaxtında 3 min hektardan çox torpaq sahələrinin su altında qalması cəmiyyətdə həyəcan təbili kimi qarşılanmışdır. Bunun 94%-i, yəni 2500 hektarı təkcə Mingəçevir gölünün payına düşmüşdür. Bunun nəticəsində təbii olaraq su anbarlarında çirklənmə və lillənmə dərəcəsi getdikcə çoxalırdı. Bunların müəyyən olunması isə şübhəsiz mühüm sosial-təsərrüfat əhəmiyyəti olan su tutumlarında əvvəlcədən təhlükəsizliyi təmin olundu.

Görkəmli tədqiqatçı-alim, təbiətşünas, təbiətin keşiyində zəhmət çəkən, həssas-vətənpərvər insan Şahvələd müəllim az yaşadı. Lakin vətəni üçün, xüsusilə müasir coğrafiya elminin inkişafı üçün çox iş gördü. Şahvələd müəllim həm yaşadı və həm də xalqımız üçün yeni coğrafi fikir və ideyaları yaradıb yaşatdı. Onun son illərdə əldə etdiyi elmi nailiyyətləri və konkret nəticələri Azərbaycanda coğrafi elminin elmi-metodoloji və konstruktiv uğurları idi. Onun coğrafiya elminə, təbiətşünaslıq, vətənpərvərlik mədəniyyətinə gətirdiyi elmi-metodoloji yeniliklər, onların iqtisadi-təcrübi dəyərləri həmişə Azərbaycan MEA-nın Rəyasət Heyətində coğrafiya elminin mühüm nəticələri kimi qəbul edilmiş və qiymətləndirilmişdir.

Şahvələd Xəlilovun apardığı çoxsaylı tədqiqatların nəticələrindən "Bakı-hidrolayihə" İnstitutu, Yeni Azərbaycan DRES-in baş su götürücü qurğusunun və onun tunelinin (1974), Xudafərin və Qız Qalası su anbarlarının (1979), Mingəçevir su anbarının rekonstruksiyası və HES tikintisinin (1982), İsmayıllı rayonunda Girdimançay və Əyriçay üzərində su anbarlarının (1991-1992) və Baş Mil Kanalı üzərində HES və su anbarı (1994) layihələrinin tərtibində və su anbarlarının mühafizəsi və səmərəli istifadəsi üzrə əldə etdiyi elmi nəticələri keçmiş Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi tərəfindən Azərbaycan Respublikasının potensial su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi üzrə yol xəritəsinin hazırlanmasında istifadə edilmişdir.

Ş.Xəlilov bir çox Beynəlxalq və Ümumittifaq simpozium və müşavirələrdə (Pedinq-İngiltərə, Helsinki, Moskva, Sankt-Peterburq, Novosibirsk, Tiflis, Minsk, Yakutsk, Velikiy Novqorod və s.) Azərbaycanın coğrafiya elminin kadr potensialını və onun uğurlarını layiqincə təmsil etmişdir. O, 100-dən artıq elmi əsərin, o cümlədən 5 monoqrafiyanın müəllifidir. Həmçinin, ASE-nin VI-X cildlərində Azərbaycanın çayları, gölləri və su anbarlarına aid 50-dən artıq məqalə çap etdirmişdir. Onun 12 elmi əsəri xarici ölkələrdə nəşr olunmuşdur.

20 il ərzində (1974-1993) daimi aparıcısı olduğu Azərbaycan televiziyasının ən çox sevilən verilişlərindən olan elmi-kütləvi "Səyahət" və "Sovet Azərbaycanına səyahət" (1981-1986) verilişləri coğrafi biliklərin yayılmasına, milli ekoloji mədəniyyətin yüksəlməsinə və təbiətə olan vətənpərvərlik münasibətlərinin düzgün istiqamətləndirilməsinə mühüm təsir göstərmişdir. Ş.Xəlilov çox mühüm ictimai-siyasi qabiliyyəti və fəaliyyəti ilə də fərqlənmişdir. O, 1978-84-cü illərdə AMEA partiya komitəsinin katibi, Bakı Şəhər Sovetinin deputatı seçilmişdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra da, o YAP Yasamal rayon təşkilatının əsas təşkilatçılarından biri olmuş və 1993-cü ildən 2001-ci ilədək rayon təşkilatı sədrinin birinci müavini olmuşdur. YAP-ın I (1999) və II qurultaylarında (2001) YAP siyasi şurasının üzvü seçilmişdir. Bundan başqa, Ş.Xəlilov Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası Ekspert şurasının üzvü olmuşdur. O, 2000-ci ilin sonunda BDU-nun Humanitar məsələlər üzrə prorektoru və 1997-ci ildən coğrafiya fakültəsində ətraf mühitin mühafizəsi kafedrasının professoru işləmişdir. 2001-ci il iyunun 30-da Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Uzun müddət Azərbaycan Coğrafiya Cəmiyyətinin hərtərəfli formalaşmasında, cəmiyyətin regionlaşmasında Şahvələd müəllimin çox böyük xidmətləri olmuşdur.

Şahvələd müəllimin coğrafiya elminin inkişafındakı xidmətləri və əziz xatirəsi bu gün də həmkarları, dostları və yaxınları tərəfindən yad edilir və hörmətlə xatırlanır.

**Habil HAQVERDİYEV,**
**Coğrafiya üzrə fəlsəfə doktoru.**

# Mədəniyyət Mərkəzinin maraqlı tədbirləri



Bakı kəndləri arasında Maştağa qəsəbəsi teatr və mədəniyyətin digər növlərinə böyük maraq göstərməsi ilə fərqlənir. Yaşlı nəslin dediyinə görə, Maştağada teatra maraq hələ ötən əsrin əvvəllərindən yaranmışdı. Görkəmli teatr sənətkarları Hüseyn Ərəblinskinin və Cahangir Zeynalovun əsrin əvvəllərində yaratdıqları teatr, tamaşaya qoyduqları bəzi səhnə əsərləri Bakıda və ətrafındakı kəndlərdə, o cümlədən Maştağada fəhlələr qarşısında göstərilirdi. Görkəmli aktyorlarların bir çoxu — Hacıağa Abbasov, Mirzağa Əliyev, Sidqi Ruhulla kimi sənətkarlar məhz Bakı kəndlərindən çıxmışlar. Maştağa Mədəniyyət Evi 1921-ci ildə fəhlə-kəndli klubu adı ilə təşkil edilmişdir. Bu Mədəniyyət Evinin inkişafında xüsusi xidməti olan şəxslərdən biri də Əliağa Baladəmir oğlu Qasımov olmuşdur. O, burada yaradılmış qadınlar klubunun baş müəllimi vəzifəsində işləmişdir. Ə.Qasımov xüsusilə 50-ci illərdə tar müəllimi kimi də yeniyetmələrin musiqi tərbiyəsinə böyük diqqət vermişdir. O, 1956-1968-ci illərdə ansamblın rəhbəri vəzifəsində işləmişdir. Vaxtilə Maştağa Mədəniyyət Evinin nəzdindəki dram dərnəyində SSRİ Xalq artisti, görkəmli səhnə ustası Hökümə Qurbanova, respublikanın Xalq artistləri Həsənağa Salayev, Gülxar Həsənova və Şirzad Hüseynov iştirak etmişdilər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mədəniyyət sahəsinə diqqət və qayğısı sayəsində 2017-ci il dekabrın 6-da H.Abbasov adına Mədəniyyət Mərkəzinin yeni binasının açılışı olmuşdur. Mərkəzin açılışında Birinci vitse-prezident Mehriban xanım Əliyeva, Mədəniyyət naziri Əbülfəs Qarayev, Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev iştirak etmişlər. Mehriban xanım açılış edərkən öz tövsiyələrini vermiş və mərkəzin inkişafının daim dövlətin nəzarətində olacağını bildirmişdir. Mədəniyyət Mərkəzinin 13 nömrəli kitabxana filialı daxil olmaqla bina 3 mərtəbəli, 250 nəfərlik akt zalı, 48 nəfərlik konfrans zalı, 49 nəfərlik kino zalı, personal qrim, mühafizəçi, abonoment, inventar, qonaq, mətbəx, paltardəyişmə, məşq, rejissor, inzibati işıq proyeksiyası, işıq aparatı, səs operatoru, rəsm, rəqs, heykəltəraşlıq, evdarlıq, ədəbiyyat otaqları vardır.

İndi Mədəniyyət Mərkəzində müxtəlif respublika səviyyəli tədbirlər keçirilir. Ulu öndər Heydər Əliyevin




anadan olmasının ildönümünə həsr olunmuş tədbirdə bir çox tanınmış müğənnilər, görkəmli şəxsiyyətlər iştirak etmiş, ulu öndərin həyatından və çoxsahəli fəaliyyətindən geniş şəkildə məlumat verilmişdir.

Hazırda Mədəniyyət Mərkəzinin nəzdində rəssamlıq, rəqs, nağara, biçmə-tikmə, sintezator, gitara, fortepiano, aktyorluq və digər kurslar fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, 2019-cu il may ayının 1-i mərkəzin "İncəsənət" rəqs ansamblı Azərbaycanı qardaş ölkə Türkiyədə "23. Türk Dünyası Cocuk Şölen" festivalında layiqincə təmsil etmişdir. Eyni zamanda "23. Türk Dünyası Ses yarışmasında" H.Abbasov adına Mədəniyyət Mərkəzini təmsil edən İsmayıl Məmmədov 2-ci yerə layiq görülmüşdür.

Hazırda Mərkəzdə "İstedad" Xalq çalğı alətləri ansamblı fəaliyyət göstərir və ansambl bir çox tədbirlərdə layiqincə çıxış edir.

12 iyun 2018-ci ildə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə H.Abbasov adına Mədəniyyət Mərkəzində Hacıağa Abbasovun 130 illik yubiley tədbiri keçirildi ki, tədbirdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin mütəxəssisləri və Sabunçu Rayon İcra Hakimiyyətinin işçisi, Xalq artistləri: Hacı İsmayılov, "Şöhrət" ordenli Rafiq Əzimov, Əməkdar artist Əli Nur və H.Abbasovun nəvəsi Elşanə xanım, ərazidəki məktəblərin direktorları, müəllimlər və şagirdlər iştirak etmişdir. Tədbirdə H.Abbasov Mədəniyyət Mərkəzinin "İstedad" Xalq çalğı alətləri ansamblı geniş proqramla çıxış etmişdir.

Mədəniyyət Mərkəzinin direktoru, ali ixtisas təhsilli mütəxəssis Tofiq Dadaşovla söhbət edərkən bildirdi ki, mərkəz xidmət sahəsindəki uşaq bağçaları, ümumtəhsil məktəbləri, qocalar evi, sanatoriya və istirahət evləri ilə əlbir iş görmək üçün Tədbirlər planı həyata keçirir, onlara mədəni xidmət işini yüksəltmək üçün bütün real imkanlardan istifadə edir.

**Zabit CAVADOV,**
**"Respublika".**

DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

## ❑ SERGEY LAVROV: ABŞ KOSMOSA SİLAH YERLƏŞDİRİR



Rusiyanın xarici işlər naziri Sergey Lavrov bəyan edib ki, ABŞ kosmosa silah yerləşdirmə planlarını icra etməyə başlayıb. Bu barədə "Report" agentliyi Rusiya Xarici İşlər Nazirliyinin saytına istinadən məlumat yayıb.

Sergey Lavrovun "Rusiya qlobal siyasətdə" jurnalında dərc edilən məqaləsində bildirilib ki, rəsmi Vaşinqton Rusiya tərəfinin silahların kosmosda yerləşdirilməsinə dair universal moratoriumun razılaşdırılması barədə təklifini qəbul etmir.

Diplomat eyni zamanda qeyd edib ki, Qərb liberal dəyərləri müdafiə edir və sanksiyalar, hərbi təhdidlər, eləcə də suveren dövlətlərin bombalanması siyasətini yürüdür.

Bununla yanaşı, verilən xəbərə görə, Amerika Birləşmiş Ştatlarının Avropa və Afrikadakı Hərbi Hava Qüvvələrinin komandanı Ceffri Li Harriqyan bildirib ki, ABŞ-ın Rusiyanın Kalininqrad vilayətindəki hava hücumundan müdafiə sistemini keçməyə imkan verəcək planı mövcuddur.

Generalın sözlərinə görə, Pentaqon Avropada mümkün "Rusiya təcavüzünə" cavab verməyə hazırdır. O fikrini belə izah edib: "Belə bir vəziyyətdə hərtərəfli - hava, quru, dəniz, kosmosdan hücum olacaq. Bura həmçinin kiber məkandan hücumlar və elektron müharibə də daxildir".

Həmçinin general əlavə edib ki, ABŞ bu sxemi daim işləyib hazırlayır və lazım olduğu təqdirdə tətbiq etməyə hazırdır. Bununla yanaşı, Harriqyan Pentaqonun planının təfərrüatlarını açıqlamayıb.

## ❑ GÜRCÜSTAN PREZİDENTİ İLƏ BAĞLI İSTİNTAQ BAŞLAYIB



Gürcüstanın Baş Prokurorluğu prezident Salome Zurabişvilinin əfvlə bağlı qərarları üzrə istintaqa başlayıb. "Report" agentliyinin verdiyi xəbərə görə, istintaq əfvetmə prosesində dövlət başçısının hakimiyyətdən mümkün sui-istifadə etməsi üzrə həyata keçirilir.

Bildirilir ki, istintaq Gürcüstanın Cinayət Məcəlləsinin vəzifə səlahiyyətlərindən sui-istifadə maddəsinin birinci bəndi üzrə aparılır.

Sözügedən bənd üzrə cərimə və ya üç ilə qədər vəzifə tutmaq, fəaliyyətlə məşğul olmaq hüququndan məhrum olunmaqla üç ilə qədər həbs cəzası nəzərdə tutulub.

Eyni zamanda, Baş Prokurorluqdan verilən xəbərə görə, istintaqın gedişatı və nəticələri haqqında mütəmadi olaraq ictimaiyyətə məlumat veriləcək.

Qeyd edilir ki, avqustun 28-də Gürcüstanda "Mariamoba" bayramı ilə əlaqədar prezident 34 məhkumu əfv edib. Onların arasında qətlə görə məhkum olunmuş üç nəfər və axtarışda olan bir nəfər də yer alıb.

## ❑ YEREVAN MƏHKƏMƏSİ ROBERT KOÇARYANI ZAMİNƏ BURAXMAYIB



Yerevan məhkəməsi Ermənistanın keçmiş prezidenti Robert Koçaryanı girov qarşılığında zaminə buraxmaqla bağlı vəsatəti təmin etməyib. "Report" agentliyinin məlumatına görə, bunu onun vəkili Hayk Alumyan bildirib.

Verilən xəbərə əsasən, sabiq dövlət başçısı 10 gün ərzində qərarla bağlı Ermənistanın Apellyasiya məhkəməsinə etiraz edə bilər.

Qeyd edək ki, 2008-ci ilin fevral ayında Ermənistanda prezident seçkiləri keçirilib. O vaxt Mərkəzi Seçki Komissiyası namizədlərdən biri olan və hakimiyyətin dəstəklədiyi Serj Sarqsyanın 52,8 faiz səs topladığını və qalib gəldiyini elan edib. Digər namizəd - Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan seçkidə saxtakarlıq olduğunu elan edib və nəticələri tanımayıb.

Seçkilərin nəticələrinin saxtalaşdırılmasına etiraz olaraq martın 1-2-də ölkədə geniş aksiyalar keçirilib. Hakimiyyət mitinqin dağıdılması üçün güc tətbiq edib. Ordu və polisin açdığı atəş nəticəsində 10 nəfər ölüb, 230 nəfər yaralanıb. Bu hadisələri törədənlər indiyədək cəzalandırılmayıblar.

Nikol Paşinyan Ermənistanın baş naziri olandan sonra 2008-ci ilin 1-2 mart hadisələrinə görə cinayət işi yenilənib. Ovaxtkı prezident Robert Koçaryan məsələ ilə bağlı 2018-ci il iyulun 27-də həbs olunub.

## ❑ RUSİYA VƏ ÇİN BMT-nin ATƏŞKƏS QƏTNAMƏSİNƏ VETO QOYUB



BMT-nin Təhlükəsizlik Şurasına Almaniya, Küveyt və Belçika tərəfindən təqdim olunan qətnamə layihəsi səsverməyə çıxarılıb. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Bildirilir ki, Rusiya və Çin BMT-nin Təhlükəsizlik Şurasının Suriyanın İdlib şəhərində atəşkəsi nəzərdə tutan qətnaməsinə veto qoyub.

ABŞ, Almaniya, Belçika, Küveyt, Fransa, İngiltərə, İndoneziya, Polşa, Peru, Cənubi Afrika, Dominikan Respublikası və Fildişi Sahili layihənin lehinə səs veriblər. Ekvatorial Qvineya isə bitərəf qalıb.

Qərb ölkələri Rusiya və Suriya rejimini mülki vətəndaşları, məktəb və xəstəxanaları hədəf almaqda günahlandırsalar da, Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzya bu ittihamları rədd edərək İdlibdə yalnız terror təşkilatlarına qarşı mübarizə aparıldığını bəyan edib.

Rusiya ilə Çin təqdim etdikləri qətnamə layihəsi ilə atəşkəsin BMT Təhlükəsizlik Şurasının terror siyahısındakı təşkilatlara şamil edilməməsini tələb edib. Rusiyanın təqdim etdiyi qətnamə layihəsi lazımi qədər səs toplamadığı üçün qəbul edilməyib. Qətnamə layihəsinin lehinə yalnız Rusiya və Çin səs verib. Dörd ölkə isə bitərəf qalıb.

Qətnamə layihəsinə dəstək verməyən ölkələr bildiriblər ki, Rusiya tərəfindən təqdim olunan sənəddə İdlibdə yaşanan humanitar böhrana yalnız terror qruplaşmalarının səbəb olduğu vurgulanır.

## ❑ BELARUS PREZİDENTİ Aİ İLƏ VİZA REJİMİNİ SADƏLƏŞDİRİR



Belarus Avropa İttifaqı ölkələri ilə viza rejimini sadələşdirəcək. "Report" agentliyinin "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, bu barədə Belarus Xarici İşlər Nazirliyinin mətbuat katibi Anatoli Qlaz bildirib.

Məlumata görə, müvafiq qərar prezident Aleksandr Lukaşenko tərəfindən qəbul edilərək dərc olunub.

Anatoli Qlaz sənədin Aİ ilə vizaların və readmissiyanın verilməsi prosesinin asanlaşdırılmasına dair sazişin imzalanmasına aid olduğunu qeyd edib.

XİN sözçüsü deyib: "Bu addımdan əvvəl Avropa İttifaqı ilə olduqca mürəkkəb və uzun bir danışıqlar prosesi baş tutub. Nəticədə hər iki tərəfin maraqlarını tam nəzərə alan mətnlərin hazırlanması mümkün olub".

Eyni zamanda, bildirilir ki, razılaşmaya əsasən Belarus və Avropa İttifaqı arasında Şengen vizası 60 avrodan 35 avroya düşüb. Şengen vizasının verilməsi müddəti isə 30 gündən 10 günə qədər azaldılıb.

Qeyd edək ki, Belarus və Aİ 2014-cü ildən bəri viza rejiminin sadələşdirilməsi və readmissiya haqqında saziş layihələri üzrə məsləhətləşmələr aparır.

Ölkənin Daxili İşlər Nazirliyinin məlumatına əsasən, sənədin ikinci layihəsi üzrə məsləhətləşmələr artıq başa çatıb. Belarus Xarici İşlər naziri Vladimir Makey isə vurğulayıb ki, hər iki sənəd kompleks şəkildə imzalanmalıdır.

## ❑ "AIRBUS"un İŞÇİLƏRİ SƏNAYE CASUSLUĞUNDA ŞÜBHƏLİ BİLİNİR



Münhen Prokurorluğu əllərində Almaniya Silahlı Qüvvələrinin gizli kommersiya sənədləri olan "Airbus" konserninin bir neçə işçisi barədə araşdırma aparır. "Report" agentliyinin Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə "Bild" qəzeti məlumat yayıb.

Nəşr yazır ki, sənəddə Bundesverin almağa hazırlaşdığı avadanlıq göstərilib. Bununla yanaşı, konsernə Almaniya Silahlı Qüvvələrinin hansı rabitə sistemini almaq istədiyi də məlum olub.

Bildirilir ki, belə sənədlərin aşkar olunması barədə şirkət özü Prokurorluğa və Almaniya Müdafiə Nazirliyinin nümayəndələrinə məlumat verib.

Məqalədə deyilir: "Nəticədə şirkət qalmaqalda adı hallanan 20-yə yaxın əməkdaşını işdən azad edib. Bundesver də öz növbəsində, hərbçilərdən birinə qarşı intizam tədbirləri görüb". ■

# “Tokio 2020” Yay Olimpiya Oyunlarına daha beş lisenziyanın sahibi Bakıda müəyyənləşib

**Bakıda keçirilən bədii gimnastika üzrə 37-ci dünya çempionatının altıncı günündə - sentyabrın 21-də qrup hərəkətləri komandaları təsnifat yarışlarında mübarizə aparıblar.**





AZƏRTAC xəbər verir ki, “Tokio 2020” Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda 24 komanda iki qrupda yarışıb. Azərbaycan gimnastları B qrupunda güclərini sınayıblar. İdmançılar 5 top, 2 cüt gürz və 3 halqa ilə kompozisiyalarını təqdim ediblər.

Ölkəmizi təmsil edən qrup hərəkətləri komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.

Üç halqa və iki cüt gürzlə təsnifat yarışlarında Yaponiya millisi 29,000 xalla birinci pillədə qərarlaşıb. Bolqarıstan 28,800 xalla ikinci, Rusiya 28,700 xalla üçüncü pillədə yer alıblar. Azərbaycan komandası 26,700 xalla yeddinci olub. Reqlamentə görə, 8 komanda yarışın finalına yüksəlib. Finala yüksələn komandalar arasında Azərbaycanla yanaşı, Yaponiya, Bolqarıstan, Rusiya, Belarus, İsrail, İtaliya və Çin yığmaları da var.

Beş topla mübarizədə isə Rusiya komandası 30,000 xalla birinci olub. İlk üçlüyü Bolqarıstan və Yaponiya (hər ikisi 29,200 xal) yığma komandaları tamamlayıblar. Azərbaycan 26,400 xalla 9-cu pillədə yer alıb. Finala Rusiya, Bolqarıstan, Yaponiya, Belarus, Ukrayna, İtaliya, İsrail və Çin komandaları adlayıblar.

Qrup hərəkətləri komandalarının final yarışları sentyabrın 22-də keçiriləcək.

Günün sonunda çoxnövçülük üzrə yarışların qalibləri də müəyyənləşib. İki kompozisiyanın cəmində 58,700 xal toplayan Rusiya komandası qızıl medal qazanıb. Yaponiya gimnastları 58,200 xalla gümüş medala sahib olublar. Bolqarıstan komandası isə 58,000 xalla çempionatı üçüncü pillədə başa vurub.

Yarışlar başa çatdıqdan sonra mükafatlandırma mərasimi təşkil olunub.

Qrup hərəkətləri komandalarının çıxışını Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov da izləyib.

Çempionatda çoxnövçülük xalları üzrə “Tokio 2020” Yay Olimpiya Oyunlarına vəsiqə əldə edən 5 ən yaxşı komanda da bəlli olub. Ötən il Sofiyada təşkil olunan dünya çempionatının nəticələrinə əsasən Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Yaponiya millisi ev sahibi olaraq Olimpiadada iştirak edəcək. Hər dörd komanda çoxnövçülük xallarına görə ilk beşlikdə qərarlaşıblar. İki proqramın yekununda 53,100 xal toplayan Azərbaycan komandası çoxnövçülük yarışında səkkizinci olub və “Tokio 2020”yə vəsiqəni təmin edib. Azərbaycanla yanaşı, Belarus, İsrail, Çin və Ukraynanın da qrup hərəkətləri komandaları Tokioda güclərini sınayacaqlar.

Altmış bir ölkədən 300-dən artıq gimnast mübarizə apardığı çempionatın medalları Beynəlxalq Gimnastika Federasiyasının loqosu formasında hazırlanıb.

AZƏRTAC

# Dövlət Sərhəd Xidməti Mətbuat Mərkəzinin məlumatı

Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsi və narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə sahəsində əməliyyat-axtarış və qoşun tədbirləri davam etdirilir.

Cari ilin avqust ayında Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin xidməti ərazisində və “Astara” dövlət sərhədindən buraxılış məntəqəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına gətirilməsi planlaşdırılan 1 kq 265 qram “tiryək”, 156 qram “heroin” və 107 qram “metamfitamin” narkotik vasitə aşkarlanaraq götürülmüşdür. Faktlar üzrə cinayət işləri başlanılmışdır, təqsirləndirilən 2 nəfər Azərbaycan Respublikası vətəndaşları 1981-ci il təvəllüdlü Rzayev Bəhruz Şairəd oğlu və 1981-ci il təvəllüdlü Rzayeva Pərvanə Əli qızı barəsində əməliyyat-istintaq hərəkətləri davam etdirilir.

18 sentyabr tarixində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Lənkəran” sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Qapıçiməhəllə kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru hərəkət edən 1 nəfər naməlum şəxsin mühəndis çəpərinin üzərindən 4 ədəd bağlamanı atması və digər şəxsin bu bağlamanı götürərək sərhəd ərazidən uzaqlaşması sərhəd naryadı tərəfindən müşahidə edilmişdir. Sərhəd naryadı dövlət sərhədini pozaraq bağlamanı atmış şəxsi təqib edərək İran İslam Respublikası vətəndaşı, 1975-ci il təvəllüdlü Fərşad Sərhəngi Əliabbas oğlunu sərhəd pozucusu qismində saxlamışdır.

Dövlət sərhədinin pozulması ilə əlaqədar Daxili İşlər Nazirliyinin Astara rayon şöbəsinin əməkdaşları ilə birgə keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində bağlamanı götürüb ərazidən uzaqlaşan şəxsin Azərbaycan Respublikasının vətəndaşı 1961-ci il təvəllüdlü Hüseynov Dilavər İsgəndər oğlu olması müəyyənləşdirilmiş və o, şübhəli şəxs qismində saxlanılmışdır. Dindirmə zamanı D.Hüseynov götürdüyü bağlamanı Astara şəhər sakini 1970-ci il təvəllüdlü Əliyeva Bahar Əsgər qızının evində gizlətdiyini bildirmişdir. B.Əliyevanın evinə baxış zamanı 4 ədəd bağlamanın içərisində ümumi çəkisi 2 kq 245 qr olan “heroin” narkotik vasitə aşkarlanaraq götürülmüşdür.

Qeyd olunan faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

* * *

Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Qazax əlahiddə sərhəd diviziyasının sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatları davam etməkdədir.

2019-cu ilin 20 sentyabr tarixində saat 13:20 radələrində sərhəd döyüş mövqelərimiz və təminat yollarının salınması ilə məşğul olan ekskovatorumuz düşmən tərəfindən atəşə tutulmuşdur.

Düşmən bölmələrinin atəş nöqtələri cavab atəşilə susdurulmuşdur.

# Tüfeyli həyat tərzi sürən azyaşlı tapılaraq uşaq evinə yerləşdirilib

**Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları rayon ərazisində tüfeyli həyat tərzi sürən azyaşlı Vlasov Fərid Ruslan oğlunun yerinin müəyyənləşdirilərək tapılması istiqamətində zəruri tədbirlər həyata keçiriblər.**

Bakı Şəhər Baş Polis İdarəsi və Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, valideyn himayəsindən məhrum, həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə küçələrdə yaşayan 2005-ci il təvəllüdlü Fərid Vlasovu onun qayğısına qalmalı olan şəxslər tərəfindən bilə-bilə köməksiz vəziyyətdə qoymaları faktına görə Sabunçu Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 143-cü (təhlükədə qoyma) maddəsi ilə cinayət işi başlanıb.

Cinayət işi istintaqın davam etdirilməsi üçün rayon polis idarəsinin istintaq şöbəsinə göndərilib.

Fərid Vlasov Sabunçu rayonunun Yeni Ramana qəsəbəsindəki “Şəfqət Nuru” Kimsəsizlərə Yardım İctimai Birliyinin “Nur” uşaq evinə yerləşdirilib.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

AZƏRTAC

## Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir.**

**Lot 1.** “Dəniz hidrometeoroloji şəbəkəsinin modernləşdirilməsi” işlərinin satın alınması

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinə əsasən açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən müsabiqədə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 150 manat**

*Alan bank: Dövlət Xəzinədarlığı Agentliyi,*
*VÖEN: 1401555071,*
*kod 210005,*
*M/h: AZ41NABZ01360100000000003944,*
*SWİFT: CTREAZ22*
*Alan təşkilat: Milli Hidrometeorologiya Departamenti,*
*VÖEN: 1500356981*
*büdcə təsnifatının kodu 142340,*
*büdcə səviyyəsinin kodu: 7, fond 7,*
*hesab AZ35CTRE00000000000002197705*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
*-İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 14.10.2019-cu il saat 17:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 22.10.2019-cu il saat 17:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 23.10.2019-cu il saat 11:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi “Hibrid mühərrikli krossover tipli nəqliyyat vasitəsinin satın alınması” məqsədilə

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Lot 1.** Hibrid mühərrikli krossover tipli nəqliyyat vasitəsinin satınalınması.

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinə əsasən açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən müsabiqədə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 50 AZN**

*Bank rekvizitləri:*
*Hesab: AZ41CTRE00000000000002198470*
*VÖEN: 1401555071*
*Bank: Dövlət Xəzinədarlığı Agentliyi, büdcə təsnifatının kodu: 142340, büdcə səviyyəsinin kodu: 7, fond 7*
*Kodu: 210005*
*M/H: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T: CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər

*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 10.10.2019-cu il saat 17:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 18.10.2019-cu il saat 17:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 21.10.2019-cu il saat 10:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

**Tender Komissiyası.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

## Bakı Nəqliyyat Agentliyi dayanacaq pavilyonları və onların quraşdırılması xidmətinin satın alınması məqsədilə

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Lot 1** - Dayanacaq pavilyonları
**Lot 2** - Dayanacaq pavilyonlarının quraşdırılması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı:**
**Lot 1 - 700 manat**
**Lot 2 - 300 manat**

*Bank adı: Dövlət Xəzinədarlığı Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T.BİK: CTREAZ 22*
*Bakı Nəqliyyat Agentliyi*
*Hesab AZ88CTRE00000000000008147701*
*VÖEN: 1503112971*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 10.10.2019-cu il saat 12:00-ə qədər, tender təklifi və bank təminatı sənədlərini 21.10.2019-cu il saat 12:00-ə qədər portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 22.10.2019-cu il tarixdə saat 12:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

**Tender Komissiyası.**

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, bundan sonra “Satınalan təşkilat” adlanacaq, potensial iddiaçıları aşağıdakı malların təminatı üçün öz təkliflərini təqdim etməyə dəvət edir

**Lot 1.** Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Tərtər Bölgə Təcrübə Stansiyasında Toxum emalı sexinin və yardımçı binaların tikintisi, inzibati binanın əsaslı təmiri

**Lot 2.** Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Cəlilabad Bölgə Təcrübə Stansiyasında Toxum emalı sexinin inzibati və yardımçı binaların tikintisi

**Lot 3.** Göygöl rayonunda iri və xırdabuynuzlu heyvanların seleksiya damazlıq işlərinin aparılması üçün heyvandarlıq kompleksinin tikintisi

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

İddiaçı aşağıdakı tələblərə cavab verməlidir:

*-son üç il ərzində tenderə çıxarılan tikinti obyektinin xüsusiyyətlərinə və mürəkkəblik dərəcəsinə uyğun olan ən azı üç iş üzrə təcrübəyə malik olmalıdır;*
*-iddiaçı müvafiq tikinti işlərinin görülməsi üçün xüsusi icazə (lisenziya) sənədi olmalıdır;*
*-tender iştirakçılarının (iddiaçıların) son üç ildə yerinə yetirdikləri analoji işlərin dəyəri 2,0 milyon manatdan çox olmalıdır;*
*-tikinti sahəsində ən azı 3 il təcrübəyə malik iş icraçısı olmalıdır.*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması; müvafiq vergi orqandan arayış;*
*4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*7. Müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*8. İddiaçının müvafiq işlərin görülməsinə olan xüsusi icazə (lisenziya) sənədinin surəti;*
*9. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
*10. Müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış (müvafiq vergilər idarəsi);*
*11. Tender iştirakçılarının (iddiaçıların) son iki ildə yerinə yetirdikləri analoji işlərinin dəyəri tender predmetinin qiymətinə müvafiq olmalıdır;*
*12. İddiaçının mülkiyyətində olan maşın, mexanizm və avadanlıqların növü və xüsusiyyətləri haqqında arayış;*
*13. Tender təklifi*
*14. Digər sənədlər: Əsas şərtlər toplusunda nəzərdə tutulmuş.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı daxil olmaqla) 09.10.2019-cu il saat 17:00-a qədər Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-ci otağa təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 10.10.2019-cu il saat 17:00-da Kənd Təsərrüfatı Nazirliyində, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 722-ci otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, bundan sonra “Satınalan təşkilat” adlanacaq, potensial iddiaçıları aşağıdakı malların təminatı üçün öz təkliflərini təqdim etməyə dəvət edir

**Lot 1.** Füzuli rayonunda yaş baramanın qurudulması üçün yığım məntəqəsinin tikintisi

**Lot 2.** Ağsu rayonunda yaş baramanın qurudulması üçün yığım məntəqəsinin tikintisi

**Lot 3.** Zərdab rayonunda yaş baramanın qurudulması üçün yığım məntəqəsinin tikintisi

**Lot 4.** Bərdə rayonunda yaş baramanın qurudulması üçün yığım məntəqəsinin tikintisi

**Lot 5.** Zaqatala rayonunda yaş baramanın qurudulması üçün yığım məntəqəsinin tikintisi

**Lot 6.** Qobustan rayonunda iri və xırdabuynuzlu heyvanlardan ibarət heyvandarlıq kompleksinin tikintisi

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

İddiaçı aşağıdakı tələblərə cavab verməlidir:

*-son üç il ərzində tenderə çıxarılan tikinti obyektinin xüsusiyyətlərinə və mürəkkəblik dərəcəsinə uyğun olan ən azı üç iş üzrə təcrübəyə malik olmalıdır;*
*-iddiaçı müvafiq tikinti işlərinin görülməsi üçün xüsusi icazə (lisenziya) sənədi olmalıdır;*
*-tender iştirakçılarının (iddiaçıların) son üç ildə yerinə yetirdikləri analoji işlərin dəyəri 2,0 milyon manatdan çox olmalıdır;*
*-tikinti sahəsində ən azı 3 il təcrübəyə malik iş icraçısı olmalıdır.*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması; müvafiq vergi orqandan arayış;*
*4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*7. Müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*8. İddiaçının müvafiq işlərin görülməsinə olan xüsusi icazə (lisenziya) sənədinin surəti;*
*9. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
*10. Müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış (müvafiq vergilər idarəsi);*
*11. Tender iştirakçılarının (iddiaçıların) son iki ildə yerinə yetirdikləri analoji işlərinin dəyəri tender predmetinin qiymətinə müvafiq olmalıdır;*
*12. İddiaçının mülkiyyətində olan maşın, mexanizm və avadanlıqların növü və xüsusiyyətləri haqqında arayış;*
*13. Tender təklifi*
*14. Digər sənədlər: Əsas şərtlər toplusunda nəzərdə tutulmuş.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı daxil olmaqla) 30.09.2019-cu il saat 17:00-a qədər Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-ci otağa təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 01.10.2019-cu il saat 17:00-da Kənd Təsərrüfatı Nazirliyində, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 722-ci otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Nəriman CAVADOV

● Çapa imzalanmışdır
21.09.2019